8 sentyabr 2021 №67 (1844)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## "Gənclər savadlı, bilikli, eyni zamanda, milli mədəniyyətimizə yaxın olmalıdırlar"

Prezident İlham Əliyev sentyabrın 7-də Fərid Qayıbovu gənclər və idman naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib.

Dövlət başçısı vurğulayıb ki, Azərbaycan dəyərləri, milli dəyərlərimiz bizim üçün əsas prinsipdir və gənc nəsil də bu ruhda, milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdır. Gənc nəsil mənfi xarici təsirdən uzaq olmalıdır və buna nail olmaq üçün tərbiyə işləri aparılmalıdır. Gənclər milli mədəniyyətimizə yaxın olmalıdırlar. Bizim milli dəyərlərimizi dərk etməlidirlər, onları yaşatmalıdırlar və bu istiqamətdə çox ciddi iş aparılmalıdır.

səh. 2

## Mədəniyyət naziri Britaniya Şurasının nümayəndələri ilə görüşüb

Mədəniyyət naziri Anar Kərimov Britaniya Şurasının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Samr Şahı ölkəmizdəki fəaliyyət müddətinin başa çatması münasibətilə qəbul edib.

Britaniya Şurasının ölkəmizdə mədəniyyət sahəsində həyata keçirdiyi layihələri yüksək qiymətləndirən nazir Azərbaycanın bu əməkdaşlığa önəm verdiyini və birgə fəaliyyətin Azərbaycan və Böyük Britaniya arasında dostluq əlaqələrinin möhkəmləndirilməsinə istiqamətləndiyini bildirib.

səh. 3

## VIII Qlobal Bakı Forumu Təşkilat Komitəsinin toplantısı

Nizami Gəncəvi Beynəlxalq Mərkəzi BMT-nin Baş Assambleyası çərçivəsində XXI Ali Səviyyəli hibrid toplantısını, həmçinin VIII Qlobal Bakı Forumu Təşkilat Komitəsinin üçüncü iclasını təşkil edəcək.

Mərkəzdən bildirilib ki, "XXI əsrdə sülh və sabitlik nə deməkdir?" şüarı ilə keçiriləcək Ali Səviyyəli hibrid toplantıda dünyanı narahat edən sülh və təhlükəsizlik, postpandemiya dönəmi, Cənubi Qafqaz regionunda inkişaf perspektivləri, Əfqanıstan və Qərbi Balkan ölkələri ilə bağlı vəziyyəti müzakirə olunacaq.

səh. 2

## "Qarabağ" təyyarəsinin azad səmada ilk uçuşu

Xəbər verildiyi kimi, sentyabrın 5-də Füzuli Beynəlxalq Hava Limanına sərnişin və yük təyyarələrinin sınaq reysi həyata keçirilib. "Azərbaycan Hava Yolları"na (AZAL) məxsus sərnişin təyyarəsi – "Airbus A340-500" Bakı Heydər Əliyev Beynəlxalq Hava Limanından Füzuli Beynəlxalq Hava Limanına ilk reysi yerinə yetirib.

"Qarabağ" adı verilmiş təyyarə hava yolunu 35 dəqiqəyə qət edərək Qarabağ torpağındakı ilk beynəlxalq statuslu aeroporta enib. İlk reysin sərnişinləri media təmsilçiləri, blogerlər, ictimai fəallar olub.

səh. 4




## Ölkəmizin turizm potensialı Moskvada sərgi-forumda təqdim olunur

İşğaldan azad olunmuş ərazilərin turizm potensialından səmərəli istifadə istiqamətində işlər görürük.

Azərbaycan Turizm Bürosunun (ATB) baş icraçı direktoru Florian Zenqstşmid bunu sentyabrın 7-də Moskvada işə başlayan "Отдых – Leisure" beynəlxalq sərgi və forumunda çıxış edərkən bildirib.

səh. 2

# "İşğaldan azad olunmuş ərazilərdəki abidələr azərbaycanlıların kimliyidir"

### İtaliyada keçirilən "Bərpa Həftəsi"ndə Ermənistanın mədəni irsimizə qarşı vandalizmi nümayiş olunub

Avqustun 30-dan sentyabrın 4-dək İtaliyada mədəni irs mövzusunda "Bərpa Həftəsi – 2021" adlı beynəlxalq layihə keçirilib. İtaliyanın Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyi, İtaliya Ticarət Agentliyi (İCE) və Memarlıq, İncəsənət və Şəhərlərin Bərpası Assosiasiyasının (Assorestauro) birgə təşkilatçılığı ilə ölkənin müxtəlif şəhərlərində keçirilən layihədə ölkəmiz də təmsil olunub. "Bərpa Həftəsi – 2021"ə Azərbaycanla yanaşı Albaniya, Livan, Kuba, Səudiyyə Ərəbistanı və İsraildən nümayəndə heyətləri qatılıb.

Tədbirlərdə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərli və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin aparat rəhbəri Read Qasımov iştirak ediblər.

"Bərpa Həftəsi"nin Bari şəhərinin Fiera del Levante sərgi kompleksində keçirilmiş açılış mərasimində şəhərin rəhbərliyi, təşkilatçı qurumların məsul əməkdaşları, yerli memarlar, landşaft dizaynerləri və başqaları çıxış ediblər.

Sentyabrın 2-də "Bərpa Həftəsi"ndə ölkəmizin təqdimatı olub.

Açılış nitqi ilə Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadə, İtaliya Ticarət Agentliyinin Sənaye tərəfdaşlığı və beynəlxalq qurumlarla əlaqələr departamentinin müdiri Roberto Lovato və "Assorestauro"nun texniki direktoru Andrea Qriletto çıxış ediblər.

Çıxışlarda Azərbaycan-İtaliya strateji tərəfdaşlığı, müxtəlif sahələrdə mövcud olan yüksək səviyyəli əlaqələr, mədəniyyət abidələrinin qorunması və bərpası sahəsində əməkdaşlıq imkanları, o cümlədən Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin yenidən qurulması və bərpası imkanlarından söz açılıb.




davamı səh. 3-də

# Nizami Gəncəvi irsinin işığında

Nizami Gəncəvi 68 illik bir ömür yaşayıb. Ancaq onun qoyub getdiyi miras nəinki 68 ilə, hətta aradan keçən 880 ilə də sığmır. Ona görə də Nizami Gəncəvi bizim daima müasirimiz olmaqla yanaşı, bütün zamanların müasiri olaraq qalacaqdır.

Bu sözləri sentyabrın 3-də Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun təşkilatçılığı ilə Şirvanşahlar sarayında keçirilən Nizami Gəncəvi yaradıcılığına həsr olunmuş musiqili ədəbi-bədii gecədə Fondun prezidenti Günay Əfəndiyeva deyib.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Bakı Şəhər Mədəniyyət Baş İdarəsi, Bakı Xoreoqrafiya Akademiyasının dəstəyi ilə keçirilən tədbirə rəsmilər, tanınmış mədəniyyət və incəsənət xadimləri, ölkəmizdə akkreditə olunmuş xarici diplomatlar, eləcə də ötən həftə Azərbaycana səfər etmiş Türk Şurasına üzv və müşahidəçi dövlətlərin media nümayəndələri qatılıb.




Nizami Gəncəvi irsinin işığına toplaşmış qonaqları salamlayan Günay Əfəndiyeva qeyd edib ki, ötən illər ərzində dahi şairin yaradıcılığı haqqında yüzlərlə tədqiqat işi aparılıb, kitablar yazılıb. Əsrlər bir-birini əvəz edir. Siyasi-ictimai epoxalar dəyişir. Ancaq bu günün özündə də nizamişünaslıq yeni-yeni kəşflər edir, yeni fikirlər, yeni mülahizələr irəli sürür.

davamı səh. 3-də

# Tar, kamança və qaval Dünya Musiqi Alətləri Muzeyində

Tokioda Paralimpiya Oyunları zamanı Yaponiyanın Hamamatsu şəhərinə səfər edən Azərbaycan Milli Paralimpiya Komitəsinin əməkdaşları buradakı Dünya Musiqi Alətləri Muzeyinə Heydər Əliyev Fondunun hədiyyəsi olan tar, kamança və qaval təqdim ediblər.

Mərasimdə ölkəmizin Yaponiyadakı səfirliyinin birinci katibi Rövşən Cəfərov, Milli Paralimpiya Komitəsinin əməkdaşı Rüfət Hacılı, Azərbaycan-Yaponiya Dostluq Mərkəzinin sədri Xəlil Kələntər iştirak ediblər.

Əvvəlcə qonaqlara muzey haqqında ətraflı məlumat verilib. Qeyd olunub ki, muzey 1995-ci ildə təsis edilib. Məqsəd burada toplanan dünya xalqlarının qədim və müasir musiqi alətləri vasitəsilə ziyarətçilərdə ayrı-ayrı xalqların musiqi mədəniyyəti barədə təsəvvür yaratmaqdır. Muzeyin yaradılmasına dünyaca məşhur "Yamaha" pianinolarının Hamamatsu şəhərində istehsalı da mühüm təsir göstərib. Bildirilib ki, muzeydə toplanmış çoxsaylı alətlər dünyanın bir çox ölkələrindən gətirilib.

davamı səh. 8-də



# Məktəblər açılır, amma...

2021-2022-ci dərs ilində Azərbaycanda bütün təhsil müəssisələrində tədrisin ənənəvi şəkildə başlanmasına qərar verilib. Amma dərslər 15 sentyabr – Bilik Günündə deyil, bir həftə sonra və ilk olaraq orta məktəblərin ibtidai siniflərində başlayacaq.

Bu barədə sentyabrın 7-də təhsil naziri Emin Əmrullayevin iştirakı ilə keçirilən brifinqdə məlumat verilib.

Təhsil naziri bildirib ki, ümumi təhsil müəssisələrinin I–IV sinifləri sentyabrın 22-dən ənənəvi şəkildə tədrisə başlayacaq. Sentyabrın 29-dan isə ümumi təhsil müəssisələrinin V–XI sinifləri üzrə, eləcə də məktəbdənkənar, peşə, orta ixtisas və ali təhsil müəssisələrində tədrisə ənənəvi şəkildə start veriləcək.

Nazirin sözlərindən belə məlum olub ki, tədrisin bir-iki həftə gec başlaması həm də bu müddətdə koronavirusa qarşı vaksinasiya sayının artmasına (o cümlədən təhsil işçiləri arasında) əlavə imkan yaratmaqla bağlıdır. Emin Əmrullayev bildirib ki, tədrisin gec başlaması ilə əlaqədar keçirilməyən dərs saatları tədris ili ərzində tətil günləri hesabına bərpa olunacaq.

2021-2022-ci tədris ilində məktəblərdə bufetlər və idman zalları mərhələli şəkildə açılacaq. İlkin olaraq bölgə məktəblərində bufetlərin və idman zallarının açılması nəzərdə tutulur.

Brifinqdə təhsil müəssisələrində COVİD-19 əleyhinə görüləcək tədbirlərdən də danışılıb.

Bildirilib ki, hazırda 169 mindən çox təhsil işçisi vaksin olunub, o cümlədən 138 min nəfər vaksinin hər iki dozasını qəbul edib. Lakin bunun ümumilikdə təhsil işçilərinin neçə faizini təşkil etdiyi dəqiqləşdirilməyib.

"Ölkədə pandemiya hələ də davam edir. Vaksinasiya faizləri artdıqca vəziyyət yaxşıya doğru dəyişməlidir. Hansısa məktəblərdə və ya ali təhsil müəssisələrində yoluxma sayı arta bilər və ya onlar müvəqqəti bağlana bilər. Mövcud epidemioloji vəziyyət nəzərə alınaraq məhdud qapanmalara getməyə məcbur ola bilərik", – deyə nazir bildirib.

Ali təhsil müəssisələrində ənənəvi tədrislə bərabər mühazirələr distant şəkildə təşkil edilə bilər. Nazir deyib ki, pandemiya davam etdiyi üçün 50-60 nəfərlik auditoriyalarda mühazirələrin keçirilməsi qaydalara uyğun deyil. Təhsil müəssisələrinin daxili tədris planına uyğun olaraq müəyyən dərslər distant keçirilə bilər.

Onu da qeyd edək ki, sentyabrın 7-də 2021-2022-ci dərs ilində tələbə adını qazanmış şəxslərin Təhsil Nazirliyinin portal. edu.az platformasında onlayn qeydiyyatı başlanıb. Qeydiyyat 20 sentyabradək davam edəcək.

davamı səh. 2-də

"Gəncəsənət" yaradıcı insanları bir araya gətirəcək




səh. 4

"Aşıq Ələsgərlə bağlı dastan-rəvayətlər" kitabı çapdan çıxıb

səh. 5



Lətif Kərimov dühası – xalçaçı rəssam, sənətşünas alim

səh. 7

## Fərəh Əliyeva "Şöhrət" ordeni ilə təltif edilib

Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Şirməmməd qızı Əliyeva Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə və dövlət qulluğunda səmərəli fəaliyyətinə görə "Şöhrət" ordeni ilə təltif edilib.

Prezident İlham Əliyev sentyabrın 6-da bununla bağlı sərəncam imzalayıb.

Sənətşünaslıq doktoru, professor Fərəh Əliyeva 1961-ci il sentyabrın 7-də Bakı şəhərində anadan olub. Azərbaycan musiqi tarixinə dair kitabların müəllifidir. Mədəniyyət Nazirliyi İncəsənət şöbəsinin müdiri, 2014–2018-ci illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru vəzifələrində çalışıb.

Professor Fərəh Əliyevanı yubileyi və dövlət təltifi münasibətilə təbrik edirik.

## Bakı ilə Kiyev qardaşlaşır

Bakı və Kiyev arasında "Qardaşlaşmış şəhərlər" statusu haqqında saziş üzərində son tamamlanma işləri gedir. Bu barədə Kiyev Şəhər Dövlət Administrasiyasından məlumat verilib.

Məlumata görə, saziş iki şəhər arasında əlaqələri yeni müstəviyə çıxaracaq. 1997-ci ildə Bakı ilə Kiyev arasında əməkdaşlığa dair saziş bağlanıb. İmzalanacaq yeni saziş iki şəhər arasında ticarət, mədəniyyət, turizm sahələrində əməkdaşlığı gücləndirəcək, yeni çağırışlara cavab verəcək.

## VIII Qlobal Bakı Forumu Təşkilat Komitəsinin toplantısı keçiriləcək

Nizami Gəncəvi Beynəlxalq Mərkəzi BMT-nin Baş Assambleyası çərçivəsində XXI Ali Səviyyəli hibrid toplantısını, həmçinin VIII Qlobal Bakı Forumu Təşkilat Komitəsinin üçüncü iclasını təşkil edəcək.




Mərkəzin mətbuat xidmətindən bildiriblər ki, "What Does Peace and Stability Mean in 21st Century?" ("XXI əsrdə sülh və sabitlik nə deməkdir?") şüarı ilə keçiriləcək XXI Ali Səviyyəli hibrid toplantıda iştirakçılar – Şimali Makedoniya Prezidenti Stevo Pendarovski, BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Moratinos, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmayıl Serageldin, Robert F.Kennedi İnsan Hüquqları Fondunun prezidenti Kerri Kennedi, Ərəb Dövlətləri Liqasının sabiq Baş katibi Əmr Musa, İsrailin sabiq xarici işlər naziri Tzipi Livni, Belçikanın sabiq Baş naziri İv Leterm, Xorvatiyanın sabiq Prezidenti Kolinda Qrabar-Kitaroviç, Amerika Xarici Əlaqələr İnstititunun prezidenti Susan Elliott, Latviyanın sabiq Prezidenti Vayra Vike-Freyberqa, İngiltərənin sabiq Baş naziri Qordon Braun, Bosniya və Herseqovinanın Prezidenti Şefik Caferoviç, Xorvatiyanın sabiq Prezidenti İvo Yosipoviç, Bolqarıstanın sabiq Prezidenti Rosen Plevneliev və başqaları dünyanı narahat edən sülh və təhlükəsizlik, postpandemiya dönəmi, Cənubi Qafqaz regionunda inkişaf perspektivləri, Əfqanıstan və Qərbi Balkan ölkələri ilə bağlı vəziyyəti müzakirə edəcəklər.

## Məktəblər açılır, amma...

*əvvəli səh. 1-də*

Dövlət İmtahan Mərkəzinin sentyabrın 4-də elan etdiyi ali təhsil müəssisələrinə yerləşdirmənin nəticələrinə görə, bu il ümumilikdə 44861 nəfər (o cümlədən 6810 subbakalavr) ali təhsil müəssisələrinə qəbul olunub. 21856 (o cümlədən 920 subbakalavr) nəfər dövlət sifarişi əsasında, 23005 (o cümlədən 5890 subbakalavr) nəfər isə ödənişli əsaslarla təhsil almaq hüququ əldə edib. Ötən ilə nisbətən bu il tələbə olanların sayı 2130 nəfər daha çoxdur.

Məlumatda bildirilir ki, I ixtisas qrupu üzrə 13.2%, II ixtisas qrupu üzrə 14.59%, III ixtisas qrupu üzrə 1.32%, IV ixtisas qrupu üzrə 9.87%, V ixtisas qrupu üzrə isə 9.54% plan yeri boş qalıb. Sentyabrın 6-dan 10-dək boş qalan plan yerlərinə ixtisas seçimi aparılır.

I mərhələdən sonra tələbə qəbulu aparılan 42 ali təhsil müəssisəsinin 4-də plan yerləri 100%, 15 ali təhsil müəssisəsində 90%-dən, 17 ali təhsil müəssisəsində isə 80%-dən çox dolub. Qəbul aparılan ixtisasları xüsusi qabiliyyət tələb edən Bakı Xoreoqrafiya Akademiyası istisna olmaqla, digər ali təhsil müəssisələrinin plan yerləri 75%-dən çox dolub.

# "Gənclər savadlı, bilikli, eyni zamanda, milli mədəniyyətimizə yaxın olmalıdırlar"

Prezident İlham Əliyev sentyabrın 7-də Fərid Fazil oğlu Qayıbovun Azərbaycan Respublikasının gənclər və idman naziri təyin edilməsi haqqında sərəncam imzalayıb.



Fərid Qayıbov 2006-cı ildən 2017-ci ilədək Azərbaycan Gimnastika Federasiyasının baş katibi olub. 2017-ci ilin dekabrında Avropa Gimnastika İttifaqının (UEG, mənzil-qərargahı İsveçrənin Lozanna şəhərində yerləşir) prezidenti seçilib.

Dövlət başçısı Fərid Qayıbovu gənclər və idman naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib. Fərid Qayıbovun uzun illər idman sahəsində fəaliyyət göstərdiyini və ölkəmizin idman ictimaiyyəti tərəfindən yaxşı tanındığını deyən Prezident İlham Əliyev onun gənclər və idman naziri vəzifəsində etimadı da doğruldacağına əmin olduğunu bildirib.

Prezident vurğulayıb ki, bütövlükdə idman sahəsi Azərbaycanda sürətlə inkişaf edib və bu gün dünya miqyasında Azərbaycan idman ölkəsi kimi tanınır. Beynəlxalq yarışlarda idmançılarımız yüksək nəticələr göstərirlər. Düzdür, Azərbaycan ictimaiyyəti bizim idman sahəsindəki qələbələrə öyrəşib və əgər biz hansısa nəticəni əldə edə bilmiriksə, əlbəttə ki, məyus olur: "Ancaq hamımız bilməliyik ki, idman sahəsində rəqabət kifayət qədər güclüdür və bütövlükdə son illər ərzində idman sahəsində göstərilən nəticələr, əlbəttə, qürurvericidir. İdmançılarımız Dünya, Avropa oyunlarında, digər beynəlxalq yarışlarda bizi sevindirirlər. Son Yay Olimpiya Oyunlarında Rio Olimpiya Oyunları ilə müqayisədə az medal qazansaq da, yenə də hesab edirəm ki, idmançılarımız yaxşı nəticə göstəriblər. Medalların sayına görə Azərbaycan 33-cü yeri, Avropa ölkələri arasında 20-ci, müsəlman ölkələri arasında isə 4-cü yeri tutub. Düzdür, idmançılarımız bu dəfə qızıl medal qazana bilmədilər, amma ona çox yaxın idilər. Amma yenə də deyirəm, idmanda məğlubiyyətlər də olur, qələbələr də olur".

Dövlət başçısı bildirib ki, bu il paralimpiyaçılarımız bizi çox sevindirib və böyük məharət, peşəkarlıq, fədakarlıq göstərərək çoxlu medallar, o cümlədən qızıl medallar qazanıblar.

Prezident qeyd edib ki, eyni zamanda idman sahəsində buraxılan nöqsanlar da ciddi araşdırılmalıdır, ciddi təhlil aparılmalıdır: "Xüsusilə Olimpiya Oyunlarına hazırlıq dövründə bəzi federasiyalarda işlər qeyri-qənaətbəxş olmuşdur və bütün federasiyalarda mövcud olan vəziyyət ciddi təhlil edilməlidir. Deməli, məşq prosesinə, təlim-məşq toplanışlarına xüsusi diqqət verilməlidir. Onu da nəzərə almalıyıq ki, son Olimpiya Oyunlarında medallar qazanmış idmançılarımız bizim təcrübəli idmançılardır. Demək olar ki, veteran idmançılardır. Onların arasında gənc nəslin nümayəndələri yoxdur və bu, çox ciddi təhlil edilməlidir. Necə ola bilər ki, nəsillər arasında artıq belə bir ara, elə bil ki, məsafə yaranır. Son illərdə bütün bölgələrdə idman obyektlərinin tikintisi geniş vüsət almışdır, təkcə bölgələrdə 50-yə yaxın idman-olimpiya kompleksimiz fəaliyyət göstərir. Onların fəaliyyəti ciddi təftiş edilməlidir, orada məşq prosesi nə səviyyədədir, uşaqlar, yeniyetmələr idman bölmələrinə gəlirmi, gəlmirmi, idmanla məşğul olmaq üçün şərait nə dərəcədədir? Çünki biz, bu infrastrukturu, bu kompleksləri o məqsədlə yaratmışıq ki, həm idmanın kütləviliyi artsın, eyni zamanda, peşəkar idmançılar yetişsin. Nəzərə alsaq ki, Tokio Olimpiya Oyunlarında gənc idmançılar medallar qazana bilmədilər, bu, çox ciddi təftiş edilməlidir. Klublardakı vəziyyətlə bağlı təhlil aparılmalıdır. Yəni, biz nəticə çıxarmalıyıq. Biz, əlbəttə, qələbələrlə fəxr edə bilərik. Ancaq çatışmazlıqlar da var və onlar aradan qaldırılmalıdır. Bu sahədə şəffaflıq tam təmin edilməlidir və bütün xoşagəlməz hallara qarşı ciddi mübarizə aparılmalıdır".

Dövlət başçısı əlavə edib ki, idman sahəsində tərbiyə məsələlərinə də çox ciddi diqqət yetirmək lazımdır. Bütövlükdə gənclərimizin tərbiyə edilməsi prosesi diqqət mərkəzində olmalıdır. "Azərbaycan dəyərləri, milli dəyərlərimiz bizim üçün əsas prinsipdir və gənc nəsil də bu ruhda tərbiyə almalıdır, milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdır. Gənc nəsil mənfi xarici təsirdən uzaq olmalıdır və buna nail olmaq üçün tərbiyə işləri aparılmalıdır. Gənclər savadlı, bilikli olmalıdırlar, eyni zamanda, milli mədəniyyətimizə yaxın olmalıdırlar. Bizim milli dəyərlərimizi dərk etməlidirlər, onları yaşatmalıdırlar və bu istiqamətdə çox ciddi iş aparılmalıdır. Çünki indiki dünyada qloballaşma prosesləri gedir və bəzi hallarda xarici dairələr gəncləri özləri üçün əsas hədəf seçirlər. Yəni, gəncləri aldatmaq, yoldan çıxarmaq üçün səylər göstərilir. Biz bunu görürük və əlbəttə, bunun qarşısı alınmalıdır. Burada vətənpərvərlik hissləri ön planda olmalıdır", – deyə İlham Əliyev qeyd edib.

Prezident vurğulayıb ki, İkinci Qarabağ müharibəsindəki parlaq tarixi Qələbəmiz gənclərin tərbiyə işində əsas rol oynamalıdır: "44 günlük Vətən müharibəsinin hər günü bizim üçün əzizdir, doğmadır. Vətən uğrunda öz canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bizim üçün doğmadır, bizim üçün müqəddəsdir və gənclər bu nümunələr əsasında tərbiyə almalıdırlar. Bizim gənclər artıq müzəffər xalqın nümayəndələri kimi böyüyəcəklər. Bunun çox böyük mənəvi və psixoloji mənası var. Uzun illər Azərbaycan işğala məruz qalmış ölkə, biz azərbaycanlılar isə düşmən tərəfindən öz doğma torpağından didərgin salınmış xalq kimi yaşamışıq, əzab-əziyyət içində yaşamışıq, fiziki və mənəvi əzablar içində yaşamışıq. Biz buna son qoyduq. Bundan sonra müzəffər xalq kimi, qalib ölkə kimi, qürurlu insanlar kimi əbədi yaşayacağıq. Bu şanlı tarixi yaşatmaq üçün, qorumaq üçün və gəncləri bunun əsasında tərbiyə etmək üçün sizin nazirliyinizin üzərinə böyük vəzifələr düşür. Mən əminəm ki, siz bu məsuliyyəti dərk edirsiniz və bu prinsipləri gündəlik fəaliyyətinizdə rəhbər tutaraq nazirliyin fəaliyyətini təşkil edəcəksiniz".

# Ölkəmizin turizm potensialı Moskvada sərgi-forumda təqdim olunur

İşğaldan azad olunmuş ərazilərin turizm potensialından səmərəli istifadə istiqamətində işlər görürük.

Azərbaycan Turizm Bürosunun (ATB) baş icraçı direktoru Florian Zenqstşmid bunu sentyabrın 7-də Moskvada işə başlayan "Отдых – Leisure" beynəlxalq sərgi və forumunda "Show Must Go On: Turizmin gələcəyi, səyahət tendensiyaları" mövzusuna həsr olunmuş sessiyada onlayn çıxış edərkən bildirib.

Florian Zenqstşmid çıxışında ATB tərəfindən postpandemiya dövründə turizm sənayesinin bərpası istiqamətində müxtəlifyönümlü tədbirlərin həyata keçirilməsi haqqında məlumat verib.

O, yeni turizm məhsulları və marşrutların inkişaf etdirilməsi, turizm infrastrukturunun təkmilləşdirilməsi, Naftalan şəhərinin destinasiya brendinin yaradılması və bu istiqamətdə aparılan işlər barədə danışıb.




Baş icraçı direktor həmçinin ölkədə uğurlu vaksinasiya prosesi nəticəsində artıq 42 ölkənin vətəndaş və rezidentləri üçün beynəlxalq sərhədlərin açıldığını, bunun da ölkədə turizm sənayesinin bərpasına müsbət təsir göstərəcəyini bildirib.

Moskvada sentyabrın 9-dək davam edəcək "Отдых – Leisure" beynəlxalq sərgi və forumunda 21 ölkə təmsil olunur. Forum çərçivəsində ölkəmizə həsr olunmuş "Azərbaycanın turizm imkanları və yeni marşrutların inkişafı" mövzusunda sessiya keçiriləcək.

27-ci dəfə təşkil olunan forum-sərgidə Azərbaycan tərəfindən "Azərbaycan Hava Yolları" QSC (AZAL), Azərbaycan Hotel Assosiasiyası, Naxçıvan Turizm Departamentinin nümayəndələri, eləcə də 11 yerli turizm şirkəti iştirak edir.

# Qeyri-obyektiv və qərəzli

## İşğal dövründə 900-dən çox qəbiristanlığın dağıdılması ABŞ-ın Beynəlxalq Dini Azadlıq üzrə Komissiyasının arayışında əksini tapmayıb

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ABŞ-ın Beynəlxalq Dini Azadlıq üzrə Komissiyasının (U.S.Commission on International Religious Freedom – USCİRF) 01.09.2021-ci il tarixli "Məzarlıqların dağıdılması" ("Destruction of Cemetries") adlı arayışının Azərbaycanla bağlı hissəsinə dair bəyanat yayıb.

Bəyanatda deyilir: "Təəssüf ki, çox vaxt olduğu kimi, bu arayışda da real vəziyyəti əks etdirməyən, ermənilərin yaydıqları yalan məlumatlara istinad olunan, Azərbaycan tərəfinin tarixi-dini, o cümlədən qəbirüstü abidələrə olan həqiqi münasibəti fonunda saxta iddialar irəli sürülmüşdür".

Bəyanatda bildirilir ki, Azərbaycanın müstəqillik tarixində heç bir məzarlığın və ya qəbiristanlığın dağıdılması qeydə alınmayıb: "44 günlük Vətən müharibəsi müddətində belə Azərbaycan Silahlı Qüvvələri tərəfindən düşmənin mülki obyektlərinə, habelə dini təyinatlı binalara hər hansı hücum əməliyyatı həyata keçirilməmişdir. Bu faktı xarici jurnalistlər də dəfələrlə təsdiqləmişlər.

Arayışda azərbaycanlılara məxsus məzarların və digər yerlərin dağıdılması, son müharibə dövründə erməni hərbi qüvvələrinin Tərtər rayonu ərazisində dəfn mərasimi zamanı qəsdən qəbiristanlığa atəş açması, 4 nəfərin həlak olması, 4 nəfərin yaralanması faktının "Human Rights Watch" təşkilatı tərəfindən təsdiq edildiyi vurğulansa da, qəribədir ki, həmin məlumatlar "Azərbaycan" adlı yarımbaşlıq altında qeyd edilmişdir. Bütün bu deyilənlər və arayışda "Ermənistan" yarımbaşlığının, ümumiyyətlə, olmaması sözügedən materialın nə dərəcədə ermənipərəst və qərəzli mahiyyət daşıdığının göstəricisidir".

Bəyanatda, həmçinin qeyd olunur ki, sözügedən arayışda Ermənistanın 30 ilə yaxın müddətdə işğal altında saxladığı BMT tərəfindən tanınan Azərbaycan ərazilərində etnik təmizləmə və soyqırımı həyata keçirməsi, Azərbaycan toponimlərini erməniləşdirməsi, yüzlərlə tarixi-mədəni abidələrlə yanaşı, mövcud olan 60-dan çox məscidi, 200-ə yaxın ziyarətgahı dağıtması və yarıuçuq məscidlərdə heyvan saxlamaqla dini dəyərləri təhqir etməsi, eləcə də Qafqaz Albaniyası mədəni irsinə və pravoslav kilsəsinə aid olan xristian məbədlərində saxtalaşdırma işləri görərək qriqoryanlaşdırması və ya dağıtması qeyd olunan sənəddə öz əksini tapmayıb.




Vurğulanır ki, işğal dövründə ümumilikdə 900-dən çox qəbiristanlıq dağıdılıb, cəsədlər çıxarılıb, təhqir olunub, qəbirüstü abidələr talan edilib. Ermənistan bütün bu cinayətkar əməlləri ilə "Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt", "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyası, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyası və "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il Konvensiyası və s. beynəlxalq norma və standartların tələblərini kobud surətdə pozub.

Bəyanatda həmçinin diqqətə çatdırılır ki, ölkəmizdə fəaliyyət göstərən diplomatik korpus nümayəndələri ilə yanaşı, İCESCO, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY), Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu kimi beynəlxalq təşkilatlar, eləcə də xarici jurnalistlər azad edilmiş zonalarda missiyalarını həyata keçirərkən qəbiristanlıqlara qarşı mənfur düşmənin törətdiyi vandalizm aktlarının dünya ictimaiyyəti tərəfindən pislənilməsi istiqamətində çağırışlar etmişlər: "Təəssüflər olsun ki, 30 illik işğal dövründə bəzi aidiyyəti beynəlxalq qurumlar məsələyə laqeyd münasibət bəsləmiş, Azərbaycan tərəfinin tələblərinə baxmayaraq, nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən UNESCO tərəfindən bu məsələlərlə bağlı faktaraşdırıcı missiya göndərilməmişdir".

Dünyada vicdan azadlığı ilə bağlı vəziyyəti təhlil etmək və qiymətləndirmək kimi məsuliyyəti üzərinə götürmüş ABŞ-ın Beynəlxalq Dini Azadlıq üzrə Komissiyası sözügedən arayışının Azərbaycanla bağlı hissənin qeyri-obyektiv və qərəzli olduğunu vurğulayan Dövlət Komitəsi gələcəkdə bu sahədə hazırlanan hesabatların daha obyektiv və dürüst tərtib edilməsi üçün ABŞ-ın Beynəlxalq Dini Azadlıq üzrə Komissiyasını və digər müvafiq qurumlarını əməkdaşlığa dəvət edir.

# Nizami Gəncəvi irsinin işığında

## Şirvanşahlar sarayında şairin yaradıcılığına həsr olunmuş musiqili ədəbi-bədii gecə

*əvvəli səh. 1-də*

"İpək Yolunun üzərində yerləşən Gəncədə dünyaya göz açan Nizami ömrü boyu burada yaşayıb-yaradıb. Öz yaradıcılığını Gəncənin sərvəti kimi təqdim edirdi. Lakin tarix sübut etdi ki, onun yaradıcılığı yalnız Gəncənin deyil, bütün Türk dünyasının sərvətidir. Nizami dövründə Azərbaycanda yaranmış dövlətlərə Şirvanşahlar və Eldəgizlər kimi türk sülalələri başçılıq edirdi. Nizami Gəncəvi bir çox dillər bilirdi. O dövrün ənənəvi poeziya dili olan fars dilində yazırdı. Ancaq onun mənəvi-poetik dili türk dili idi. Onun qıpçaq qızına, Afaqa olan məhəbbəti, bütün Türk dünyasına olan məhəbbətin ifadəsi idi. Nizami Türk dünyasının dahi sənətkarı idi", – deyə Günay Əfəndiyeva əlavə edib.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti vurğulayıb ki, Nizami Gəncəvi irsi yalnız Azərbaycan ədəbiyyatının inkişafında deyil, digər incəsənət sahələrinin inkişafında da mühüm rol oynayıb: "Bir çox görkəmli Azərbaycan bəstəkarları öz yaradıcılıqlarında Nizaminin əsərlərinə müraciət ediblər. Bu gün bu incilərdən bəziləri Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun himayəsi ilə yaradılmış "Dədə Qorqud" kamera orkestrinin ifasında səslənəcək. Biz orkestrin bədii rəhbəri – Xalq artisti, görkəmli dirijor Yalçın Adıgözəlovla birlikdə bu yola çıxaraq Türk dünyasının zəngin mədəniyyətini, incəsənətini və musiqi xəzinəsini bütün dünyaya təbliğ etməyi qarşımıza məqsəd qoymuşuq. Sizi bu qədim məkanda dahi Nizaminin, eləcə də ölməz bəstəkarlarımız Üzeyir Hacıbəylinin, Qara Qarayevin, Fikrət Əmirovun sehrli sənət dünyasına dəvət edirəm".





Mərasimdə çıxış edən mədəniyyət naziri Anar Kərimov tədbirin təşkilatçılarına təşəkkürünü bildirərək deyib: "Həqiqətən də, biz hamımız bu cür tədbirlərin keçirilməsi üçün darıxmışıq. Belə bir fürsətin yaradılmasında Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun təşəbbüsü təqdirəlayiqdir. Bildiyiniz kimi, 2021-ci il ölkə rəhbərliyi tərəfindən "Nizami ili" elan olunmuşdur. Bu bir daha Azərbaycan dahisi, şairi, mütəfəkkiri olan Nizamiyə olan hörmətin və dövlət tərəfindən onun irsinə göstərilən diqqətin nümunəsidir. Bu ilin elan edilməsi Nizaminin həm Azərbaycanda, həm də beynəlxalq aləmdə təbliğ edilməsi deməkdir. Nizaminin unikallığı ondan ibarətdir ki, bu şəxsiyyət Azərbaycandan – Gəncədən kənara çıxmasa da, onun əsərləri, fəlsəfi fikirləri nəinki Türk dünyasına, regiona, Yaxın Şərqə, hətta bütün dünyaya yayıldı, örnək oldu, onun əsərlərində əks etdirdiyi prinsiplərə, dəyərlərə istinadlar edildi. Təsadüfi deyildir ki, Avropanın aparıcı yazıçıları, şairləri onun əsərlərindən bəhrələnirdi".

Mədəniyyət naziri digər aidiyyəti qurumlar tərəfindən "Nizami Gəncəvi İli" ilə bağlı tədbirlər planının hazırlandığını söyləyib. Bildirib ki, bu il Nizami Gəncəvinin qəzəllərinin çap olunması, əsərlərinin geniş şəkildə təbliği, beynəlxalq ədəbiyyat festivalının keçirilməsi, onun poemaları əsasında filmlərin çəkilməsi, növbəti Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasının dahi şairin yubileyinə həsr olunması və başqa silsilə tədbirlər nəzərdə tutulub. O, Nizamiyə həsr olunmuş musiqili ədəbi-bədii gecənin xüsusi əhəmiyyət daşıdığını vurğulayıb.

"Mədəniyyət Nazirliyi olaraq Türk dünyasını təmsil edən qurumlarla çox gözəl əməkdaşlıq edirik. Bu bizim siyasətimizin prioritet bir hissəsidir. Türk dünyasında müştərək olan şəxsiyyətlərimizin və adət-ənənələrimizin, tariximizin təbliğ olunmasına nail oluruq", – deyə Anar Kərimov vurğulayıb.

Gecədə daha sonra Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun himayəsi ilə yaradılmış "Dədə Qorqud" kamera orkestrinin konsert proqramı təqdim olunub.

Xalq artisti Yalçın Adıgözəlovun dirijorluq etdiyi orkestr Azərbaycanın dahi bəstəkarları Üzeyir Hacıbəyli, Qara Qarayev və Fikrət Əmirovun Nizami Gəncəvi irsindən bəhrələnərək yaratdıqları musiqiləri ifa edib. Xalq artisti Mircavad Cavadovun udda müşayiəti ilə Xalq artisti Nurəddin Mehdixanlı Nizaminin qəzəllərini səsləndirib. Əməkdar artist Anar Şuşalı Ü.Hacıbəylinin "Sənsiz" və "Sevgili canan" romanslarını oxuyub. Xalq artisti Kamilla Hüseynovanın quruluş verdiyi xoreoqrafik səhnələr nümayiş olunub.

# "İşğaldan azad olunmuş ərazilərdəki abidələr azərbaycanlıların kimliyidir"

## İtaliyada keçirilən "Bərpa Həftəsi"ndə Ermənistanın mədəni irsimizə qarşı vandalizmi nümayiş olunub




*əvvəli səh. 1-də*

Dövlət Xidmətinin rəisi Azad Cəfərli Azərbaycanın Ermənistan işğalından azad olunmuş ərazilərinə "Böyük Qayıdış"a hazırlıq və mədəni irsin bərpası istiqamətində görülən işlər haqqında geniş təqdimatla çıxış edib. O, Ermənistan tərəfindən 30 il ərzində işğal altında saxlanılan ərazilərimizdə tarix və mədəniyyət abidələrinin dağıdılmasına, mənimsənilməsinə və vandalizmə məruz qalmasına, qeyri-qanuni arxeoloji qazıntıların aparılmasına dair ətraflı məlumat verib, fotofaktları təqdim edib. Həmçinin Azərbaycan tərəfindən bərpa prosesinə başlanıldığı, ərazilərin minalardan təmizlənmə prosesinin davam etdiyi diqqətə çatdırılıb.

A.Cəfərli vurğulayıb ki, postkonflikt dövründə davamlı sülhün və rifahın tam bərqərar olması məqsədilə infrastruktur və şəhərsalma layihələri həyata keçirilir. Bunun məntiqi davamı olaraq Azərbaycan tərəfindən BMT-nin Sivilizasiyalar Alyansı ilə birlikdə "Mədəniyyət naminə sülh" kampaniyasına başlanıldığı qeyd olunub.

Dövlət Xidmətinin rəisi qeyd edib ki, Azərbaycan tərəfi bərpa prosesi çərçivəsində qarşılıqlı faydalı təkliflərə açıqdır və bu istiqamətdə İtaliyadan olan tərəfdaşların və şirkətlərin bu prosesə töhfə verməsini müsbət qiymətləndirir.

Read Qasımov çıxışında İçərişəhərdə aparılan bərpa işləri haqqında, gələcəkdə açılması nəzərdə tutulan unikal muzey layihəsinə dair məlumat verib.

Tədbir çərçivəsində beynəlxalq bərpa sərgisi də təşkil olunub. Sərgi çərçivəsində Azərbaycan nümayəndə heyəti İCE, Assorestauro, İtaliya Milli Tədqiqat Şurasının (CNR), habelə İBİX (abidələrin təmizlənməsi), ENEL X (memarlıq işıqlandırılması), CORES4N (abidələrin interyerinin bərpası üzrə) kimi İtaliyanın tikinti və bərpa üzrə qabaqcıl şirkətlərinin nümayəndələri ilə görüşlər keçirib.

***

Azərbaycan nümayəndə heyəti "Bərpa həftəsi – 2021" çərçivəsində sentyabrın 3-də Matera şəhərində keçirilən tədbirdə də iştirak edib. Tok-şou formatında təşkil olunmuş tədbir təşkilatçı qurumların sosial şəbəkə profilləri üzərindən canlı yayımlanıb.

Tok-şounun aparıcısı – İtaliyanın Memarlıq, İncəsənət və Şəhərlərin Bərpası Assosiasiyasının (Assorestauro) texniki direktoru Andrea Qriletto nümayəndə heyətinə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yerləşən tarix-memarlıq abidələrinin vəziyyəti, bərpa sahəsində iki ölkə arasında əməkdaşlıq imkanlarına dair suallar ünvanlayıb.

Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadə Prezident İlham Əliyevin 2020-ci ilin fevralında İtaliyaya dövlət səfəri zamanı iki ölkə arasında imzalanmış "Çoxölçülü strateji tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə", strateji əməkdaşlığın inkişafı, eləcə də 44 günlük Vətən müharibəsi zamanı İtaliyanın tutduğu ədalətli mövqedən danışıb.

Səfir Vətən müharibəsindən dərhal sonra İtaliyadan Azərbaycana rəsmi nümayəndə heyətlərinin səfərləri, işğaldan azad olunmuş ərazilərdəki bərpa və yenidənqurma işlərinə İtaliya şirkətlərinin cəlb olunması imkanlarının müzakirəsi, iki ölkə arasında iqtisadi əməkdaşlığa dair hökumətlərarası komissiya çərçivəsində keçirilmiş görüşlər haqqında məlumat verib.

Dövlət Xidmətinin rəisi Azad Cəfərli "Böyük Qayıdış" prosesindən, azad olunmuş ərazilərdə yerləşən mədəni sərvətlərin Mədəniyyət Nazirliyi tərəfindən monitorinqi və dağıdılma, mənimsənilmə və vandallığa məruz qalma vəziyyətinin öyrənilməsi haqqında söz açıb. Bildirib ki, azərbaycanlı məcburi köçkünlərin yenidən öz doğma şəhər və kəndlərinə geri dönməsi tarix və mədəniyyət abidələrinin, əcdadlarımızın minillər boyunca öz həyat tərzini, həyat fəlsəfəsini və baxışını maddiləşdirdiyi tikililərin bərpasından başlayacaq. Bu, böyük bir irs, azərbaycanlıların kimliyi deməkdir. 30 il ərzində zədələnmiş hisslər yalnız abidələrimizin yenidən bərpası, qədim yaşayış məskənlərimizin abadlaşdırılması yolu ilə sağaldıla bilər.



Vurğulanıb ki, azad olunmuş ərazilər 706-sı dövlət qeydiyyatında olmaqla 2600-dən çox abidə, o cümlədən Azıx mağarası, Xudafərin körpüləri, Üzərliktəpə qədim yaşayış məskəni kimi mühüm tarixi-mədəni irs abidələrinin yerləşdiyi məkandır. Yalnız infrastrukturun və abidələrin bərpası vasitəsilə rifaha, yüksəlişə, davamlı inkişafa nail olmaq mümkündür. A.Cəfərli bu kontekstdə Azərbaycan Hökuməti tərəfindən BMT-nin Sivilizasiyalar Alyansı ilə birlikdə irəli sürülmüş "Mədəniyyət naminə sülh" kampaniyasını xatırladıb. Sülhün mədəniyyətin qorunması və inkişafı üçün əsas şərtləndirici amil olduğunu diqqətə çatdırıb.

Sonra Read Qasımov "İçərişəhər" qoruğu ərazisində aparılan bərpa prosesi, nəzərdə tutulan layihələr, habelə bu il qoruq ilə Matera Şəhər Bələdiyyəsi arasında dostluq və əməkdaşlıq haqqında protokolun imzalanması və əməkdaşlığın inkişaf imkanları barədə məlumat verib.

Azərbaycan nümayəndə heyətinin çıxışları işğaldan azad edilmiş ərazilərimizdə yerləşən mədəni irsimizə qarşı Ermənistan tərəfindən törədilmiş vandalizm aktlarına dair videomateriallarla müşayiət olunub.

Tədbirdə Matera Şəhər Bələdiyyəsinin mədəniyyət məsələləri üzrə müşaviri, Albaniya və Livanın nümayəndələri də çıxış ediblər.

# Mədəniyyət naziri Britaniya Şurasının nümayəndələri ilə görüşüb

**Mədəniyyət naziri Anar Kərimov sentyabrın 3-də Britaniya Şurasının (British Council) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Samr Şahı ölkəmizdəki fəaliyyət müddətinin başa çatması münasibətilə qəbul edib.**



Görüşdə mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva, Mədəniyyət Nazirliyi Aparatının rəhbəri Vasif Eyvazzadə, Britaniya Şurasının ölkəmizdəki ofisinin rəhbəri vəzifəsinə təyin olunmuş Frensis Qardener-Trexo və Britaniya Şurasının əməkdaşı Dilarə İbrahimova iştirak edib.

Qonaqları salamlayan nazir Anar Kərimov öncə Samr Şahı İordaniya üzrə Britaniya Şurasının ofis rəhbəri və Levant Klasterinin başçısı vəzifəsinə təyin olunması münasibətilə təbrik edib, ona yeni vəzifəsində uğurlar arzulayıb.

Britaniya Şurasının ölkəmizdə mədəniyyət sahəsində həyata keçirdiyi layihələri yüksək qiymətləndirən nazir Azərbaycanın bu əməkdaşlığa önəm verdiyini və birgə fəaliyyətin Azərbaycan və Böyük Britaniya arasında dostluq əlaqələrinin möhkəmləndirilməsinə istiqamətləndiyini bildirib.

Səmimi qəbula görə nazirə minnətdarlığını ifadə edən Samr Şah Azərbaycanda çalışdığı müddətdə Britaniya Şurasının əməkdaşları ilə birgə görülmüş işləri məmnunluqla vurğulayıb, mövcud əlaqələrin, səmərəli əməkdaşlığın növbəti illərdə də uğurla davam etdiriləcəyinə əminliyini bildirib, nazirə və nazirliyin kollektivinə uğurlar arzulayıb.

Görüşdə həmçinin Britaniya Şurasının ölkəmiz üzrə nümayəndəliyinin yeni rəhbəri ilə birgə fəaliyyətin uğurla həyata keçiriləcəyinə, əməkdaşlığın daha da genişləndiriləcəyinə inam ifadə edilib.

Görüş tərəflər arasında qarşılıqlı maraq doğuran digər məsələlərin müzakirəsi ilə davam edib.

# Şirin Məlikova "Selvedge-2021" sərgisi çərçivəsində sessiyaya moderatorluq edib

**Azərbaycan Milli Xalça Muzeyinin direktoru, İCOM Azərbaycan Milli Komitəsinin sədri Şirin Məlikova 31 avqust-5 sentyabr tarixlərində gerçəkləşən "Selvedge-2021" Virtual Dünya Satış-Sərgisi çərçivəsində təşkil olunan "Yaradıcılıq günü" proqramının sessiyasına moderatorluq edib.**

Xalça Muzeyindən bildirilib ki, onlayn sessiyada Finlandiyadan tekstil üzrə rəssam Maya Esko, Hindistandan tekstil dizayneri Şayviya Qupta, Şri-Lankanın "BAREFOOT" dizayn və tekstil evindən Dominik Sansoni, Meksikadan yerli toxuculara və sənətkarlara dəstək olan hüquq müdafiəçisi Patris Perilli maraqlı təqdimatlarla çıxış ediblər.

Ş.Məlikova sessiyada Azərbaycan mədəniyyətinin simvolu, xalqımızın həyat tərzində əsas rol oynayan xalça sənəti haqqında məlumat verib. O, iştirakçılara muzeyin yeni layihələri, inklüziv proqramları, boyama sənətinin inkişafı və qədim xalçatoxuma texnikalarının dirçəldilməsi istiqamətində fəaliyyətindən ətraflı bəhs edib.

Sonra izləyicilər muzeyin Beynəlxalq əlaqələr və innovasiyalar şöbəsinin müdiri Firahnaz Musayevanın bələdçiliyi ilə Bakıya – dünyanın ilk Xalça Muzeyinə virtual tura dəvət olunublar. Xalq rəssamı Eldar Mikayılzadə ilə onun emalatxanasında onlayn görüş təşkil edilib. Xalçaçı rəssam ölkəmizdə xalçaçılıq ənənələrinin yaşadılması, inkişaf etdirilməsi haqqında məlumat verib, həmçinin yeni yun və ipək xalçaların toxunma prosesini nümayiş etdirib.

"Yaradıcılıq günü" proqramında Yeni Zelandiya, Honq-Konq, Yaponiya, Hindistan, Misir, Avstriya, Böyük Britaniya, Kolumbiya, Çili, Meksika və Kanadadan sənətkarlar təmsil olunublar.

Qeyd edək ki, geyim mədəniyyətinin və yaradıcılığının bayramı sayılan "Selvedge" sərgisində 75 ölkədən 150-dən çox sənətkar öz milli mədəni irsini, tekstil ənənələrini nümayiş etdirib.

# Bakı Uşaq və Gənclər Teatrı qazi və şəhid ailələrinin qonağı olub

**Bakı Uşaq və Gənclər Teatrının kollektivi Bakının Buzovna qəsəbəsindəki Səhiyyə Nazirliyi Sanator Kurort Reabilitasiya Mərkəzində qazi və şəhid ailələrinin qonağı olub. Teatrın aktyorları Vətən müharibəsi şəhidlərinin övladları üçün nağıl qəhrəmanlarını canlandırıblar.**



İlhamə Əhmədova və Rauf Hüseynlinin aparıcı olduqları tədbirdə teatrın aktrisası Əfruz Əliyevanın ifasında musiqi nömrələri, aktyorlar Türkan Şahmarlı, Qurban Əhmədov, Gülnar Əlizadə, Sənan Fərzəliyev, Rəhimə Abdinova, Röyal Allahverdiyevin ifasında səhnəciklər maraqla qarşılanıb.

Qeyd edək ki, Səhiyyə Nazirliyi tərəfindən yüksəkkeyfiyyətli avadanlıqlarla təmin olunan və təcrübəli tibbi personalın çalışdığı Sanator Kurort Reabilitasiya Mərkəzi 14 noyabr 2020-ci il tarixindən Birinci-vitse prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Vətən müharibəsi qazilərinin istifadəsinə verilib.

# "Oskar"a təqdim ediləcək filmlərin qəbuluna başlanılıb

**Azərbaycan filmlərinin Amerika Kino Akademiyasının "Oskar" mükafatına təqdimatı üzrə Komissiyanın növbəti iclası keçirilib.**

Bu barədə Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının (ARKİ) mətbuat xidmətindən məlumat verilib.

ARKİ-nin sədri, Xalq artisti, professor Şəfiqə Məmmədovanın rəhbərlik etdiyi və üzvlərin yeniləndiyi komissiyanın iclasında qəbul olunan qərara əsasən, 2020–2021-ci illərdə çəkilmiş filmlər prodüserlər tərəfindən 1 nüsxə DVD formatında komissiyaya təqdim olunmalıdır. Filmlər komissiyaya sentyabrın 20-dək qəbul olunur.

## “Səhnədən səngərə” layihəsində daha bir təqdimat: şəhid Mehman Əliyev

Mədəniyyət Nazirliyinin Vətən müharibəsində həlak olmuş mədəniyyət işçilərindən bəhs edən “Səhnədən səngərə” layihəsinin daha bir videomaterialı yayımlanıb. Layihənin növbəti buraxılışı Tərtər rayonundan mülki şəhid Mehman Sovet oğlu Əliyevin əziz xatirəsinə həsr olunub.




Tərtər şəhər Uşaq musiqi məktəbinin qarmon müəllimi Mehman Əliyev Vətən müharibəsinin başlanmasının ertəsi günü 2020-ci il sentyabrın 28-də hərbi xidmətə könüllü yazılmağa gedərkən düşmənin şəhərə atdığı mərminin partlaması nəticəsində həyatını itirib.

44 günlük Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin döyüş bölgəsindən kənarda yerləşən yaşayış məntəqələrini atəşə tutması nəticəsində yüzə yaxın mülki şəxs şəhid olub.

1977-ci il sentyabrın 4-də anadan olan Mehman Əliyev 1991-ci ildə Tərtər rayon Uşaq musiqi məktəbini, 1996-cı ildə Ü.Hacıbəyli adına Ağdam Musiqi Texnikumunu qarmon ixtisası üzrə bitirib. Çalışdığı məktəbdə sənətin sirlərini həvəslə uşaqlara öyrədirdi.

Ailəli idi, üç övladı (bir oğlan, iki qız) qalıb.

Videomaterialda Mehman Əliyevin övladları, doğmaları, musiqi məktəbindəki iş yoldaşları onun haqqında xatirələrini bölüşüb, şəhidin nakam arzularını dilə gətiriblər.

“Səhnədən səngərə” layihəsinin yeni buraxılışını bu linkdə izləmək mümkündür: https://youtu.be/FLZLMf13HyM

## “Gəncəsənət” yaradıcı insanları bir araya gətirəcək

17-18 sentyabr tarixlərində Gəncə şəhərindəki Filarmoniya bağı və Urban Mərkəzində “Gəncəsənət” adlı yaradıcılıq sərgi-yarmarkası təşkil olunacaq.

Sərgi-yarmarka Gəncə Şəhər İcra Hakimiyyəti, Gəncə Regional Mədəniyyət İdarəsi və Gəncə İctimai İştirakçılıq Məclisinin birgə təşkilatçılığı ilə gerçəkləşəcək.

Sərgi-yarmarkanın məqsədi sakinlər arasında sənətkarlıq və incəsənətə marağın artırılması, sənət növlərinin yaşadılması və inkişafı, alıcı və sənətkar arasında körpünün qurulması, eləcə də şəhərin mədəni həyatına rəng qatmaqdır.

Layihədə Gəncə şəhəri və qərb regionunda yaşayan, incəsənətin istənilən növləri ilə məşğul olan peşəkar və həvəskar insanlar öz əl işləri ilə iştirak edə bilər.

# “Qarabağ”ın azad səmada uçuşu

### AZAL-ın təyyarəsi Füzuli aeroportuna ilk reysi həyata keçirib

Xəbər verildiyi kimi, sentyabrın 5-də Füzuli Beynəlxalq Hava Limanına sərnişin və yük təyyarələrinin sınaq reysi həyata keçirilib. “Azərbaycan Hava Yolları”na (AZAL) məxsus sərnişin təyyarəsi – “Airbus A340-500” Bakı Heydər Əliyev Beynəlxalq Hava Limanından Füzuli Beynəlxalq Hava Limanına ilk reysi yerinə yetirib.

“Qarabağ” adı verilmiş təyyarə hava yolunu 35 dəqiqəyə qət edərək Qarabağ torpağındakı ilk beynəlxalq statuslu aeroporta enib. İlk reysin sərnişinləri media təmsilçiləri, blogerlər, ictimai fəallar olub.

Bundan əlavə, Azərbaycanın “Silk Way” aviaşirkətinə məxsus ən böyük yük təyyarələrindən olan “Boeing 747-400” tipli hava gəmisi də həmin gün Füzuli aeroportuna eniş icra edib. Bu təyyarə ilə Qarabağa ilk dəfə hava yolu vasitəsilə yüklər çatdırılıb.

Füzuli Beynəlxalq Hava Limanında uzunluğu 3000 metr, eni 60 metr olan uçuş-enmə zolağı istismara verilib. Uçuş-enmə zolağı Beynəlxalq Mülki Aviasiya Təşkilatının (İCAO) bütün tələblərinə uyğun olaraq uçuşların təhlükəsizliyini təmin etmək üçün instrumental enmə və naviqasiya sistemləri, işıq-texniki, ilkin və ikinci radiolokasiya sistemləri ilə tam



təchiz olunub. Bu, hava limanına istənilən tip təyyarələrin qəbul edilməsinə imkan verəcək. Perronun sahəsi 60 min kvadratmetr təşkil edir.

Avtomatlaşdırılmış sistemlərlə təchiz olunmuş Hava hərəkətini idarəetmə (HHİ) qülləsinin tikintisi başa çatıb. Bunun sayəsində Füzuli hava limanına İCAO və Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının (İATA) standartlarına müvafiq qaydada uçuşların başlanması mümkün olacaq. Aeronaviqasiya sisteminə və işğaldan azad edilmiş ərazilər üzərindən uçuşlara tam nəzarəti təmin etmək üçün yeni beynəlxalq hava yolları tətbiq olunur.

Aerovağzal kompleksinin elektrik enerjisi ilə təmin edilməsi üçün nəzərdə tutulan əsas transformator yarımstansiyaları və elektrik ötürücü xətləri də hazırdır. Qazanxana və digər köməkçi binaların tikintisi başa çatıb. Sentyabrın sonunda istifadəyə verilməsi planlaşdırılan sərnişin terminalının qarşısında 150 avtomobil üçün nəzərdə tutulan dayanacaq inşa edilib. Füzuli Beynəlxalq Hava Limanını “Zəfər yolu” və Şuşa şəhərinə aparan magistral yol ilə birləşdirən avtomobil yolunun tikintisi davam etdirilir.



Füzuli Beynəlxalq Hava Limanı üzrə layihə meneceri Səlim Akbay bildirib ki, bu, onlar üçün həm çox çətin, həm də çox asan bir layihə oldu: “Nə üçün çox çətin oldu? Biz layihəyə ilk başlayanda burada heç nə – elektrik, su yox idi, hər yerdə minalar vardı. Amma güclü Azərbaycan dövləti qısa bir zamanda bizə tikinti üçün lazım olan bütün şəraiti yaratdı. Ərazi minalardan təmizləndi, elektrik təchizatı təmin olundu və biz də çalışmağa başladıq. Bu layihə nə üçün çox asan idi? Çünki bu layihədə çalışan 1000-ə qədər insan ürəkdən, bu layihənin önəmini bilərək işlədilər. Biz heç vaxt burada işləyən insanlara “yaxşı işləyin”, “tez işləyin” deməyə ehtiyac duymadıq. Layihə dövründə bura Türkiyə və digər ölkələrdə hava limanlarında işləmiş, təcrübəsi olan mütəxəssisləri dəvət etdik. Burada 12 Türkiyə şirkəti çalışdı. Türkiyədən, Rusiyadan, Çindən, ABŞ-dan, Almaniyadan, İtaliyadan, İspaniyadan, Finlandiyadan beynəlxalq standartlara uyğun tikinti materialları və aeroport avadanlıqları gətirildi. Sentyabrın sonuna layihəni yekunlaşdıracağıq”.

**Bölgələrdən xəbərlər**

## Zəfər yürüşünün qəhrəman yolçuları



İsmayıllı Regional Mədəniyyət İdarəsi Qəbələ Dövlət Rəsm Qalereyasında II Qarabağ müharibəsi şəhidi Əsəd Zeynallının xatirəsinə həsr olunmuş “Qəhrəmanlıq salnaməsi” başlığı altında sərgi təşkil edilib.

Ağstafa Regional Mədəniyyət İdarəsi Ağstafa rayon Mədəniyyət Mərkəzinin təşəbbüsü və filial əməkdaşlarının iştirakı ilə Vətən müharibəsinin ildönümü ilə əlaqədar “Vətən müharibəsindəki Qələbəmiz tarixi nailiyyətimizdir” başlıqlı tədbir keçirilib.



Xaçmaz Regional Mədəniyyət İdarəsi Quba rayon MKS-nin Mərkəzi Kitabxanasının əməkdaşları və oxucuları Vətən müharibəsinin ildönümü ərəfəsində Quba rayon Şəhidlər xiyabanını ziyarət ediblər. MKS-nin Bağbanlı qəsəbə kitabxana filialının təşkilatçılığı ilə Vətən müharibəsi şəhidi Seymur Qocayevin evində ailəsi ilə görüş keçirilib. Rayonun Susayqışlaq kənd kitabxanasında açıq səma altında İkinci Qarabağ müharibəsinin ildönümünə həsr olunmuş “Zəfər yürüşü” adlı tədbir təşkil edilib.



Ağcabədi Regional Mədəniyyət İdarəsi Ağcabədi rayon MKS-nin əməkdaşları Vətən müharibəsi şəhidi Mirağa Əliyevin məzarını ziyarət ediblər. Kitabxana əməkdaşları daha sonra şəhidin xatirəsinə hazırlanmış bulağın açılış mərasiminə qatılıblar.

**Hazırladı: N.MƏMMƏDLİ**

# Mədəniyyət müəssisələrinin rəngarəng tədbirləri



Masallı Regional Mədəniyyət İdarəsinin rəisi Bəxtiyar Qılıncov, idarənin və Cəlilabad rayonunda fəaliyyət göstərən mədəniyyət müəssisələri əməkdaşlarının iştirakı ilə təmizlik-abadlıq aksiyası keçirilib. İməcilik tədbirləri rayonun Günəşli kəndindəki XIX əsrə aid kilsənin ərazisində aparılıb.

Masallı rayon Mərkəzi Kitabxanasında Xalq artisti, görkəmli teatr və kino aktyoru Yaşar Nurinin (1951-2012) anadan olmasının 70 illiyi ilə əlaqədar tədbir keçirilib. Kitabxananın direktoru Əlhəddin Nəzərov sənətkarın özünəməxsus koloriti ilə seçilən, lirik, komik və dramatik rolların məharətli ifaçısı kimi yaddaşlarda iz qoyduğunu bildirib.

Sabirabad Regional Mədəniyyət İdarəsi Sabirabad rayon Mədəniyyət Mərkəzinin tabeliyindəki Yeni Güdəcühür qəsəbə Klub-icma mərkəzində “Tokio-2020” Yay Paralimpiya Oyunlarında pauerliftinq idman növündə bürünc medal qazanan Pərvin Məmmədovla görüş keçirilib.

Bərdə Regional Mədəniyyət İdarəsi Bərdə rayon MKS-nin Hüseynbəyli kənd kitabxana filialı “Bacarıqlı əllər” layihəsi çərçivəsində kitabxananın oxucusu Nazlı Vəlizadənin rəsm işlərindən ibarət “Qızıl əllər” adlı videoçarx hazırlayıb.

Xaçmaz Regional Mədəniyyət İdarəsi Quba rayon MKS-nin Qorxmazoba kənd və Qonaqkənd qəsəbə kitabxana filiallarının əməkdaşları tərəfindən açıq səma altında “mütaliə günü” təşkil edilib.

Şəmkir Regional Mədəniyyət İdarəsi Göygöl rayonu üzrə nümayəndəliyin təşkilatçılığı ilə Göygöl MKS-nin S.Vurğun adına Mərkəzi Kitabxanasının oxu zalında “Rəsm çəkməyi öyrənək” adlı məşğələ keçirilib. MKS-nin tərtibatçı rəssamı Xanlar Nəzərəliyev uşaqlara rəsm çəkmək üçün lazım olan ləvazimatlardan düzgün istifadə etmək və sənətin ilk sirləri haqqında məlumat verib.

Ağdaş Regional Mədəniyyət İdarəsi Zərdab rayon MKS-nin Gəndəbil kənd kitabxana filialının əməkdaşları poçt şöbəsinin işçilərinə və abonentlərə səyyar kitabxana xidməti göstəriblər.

Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətovun təşəbbüsü ilə Gəncə şəhərində yaşayıb-yaradan rəssam və dekorativ-tətbiqi sənət ustalarının bir qrupu ilə görüş



keçirilib. Görüşdə Gəncə şəhərindən millət vəkili Müşfiq Cəfərov, Gəncə İctimai İştirakçılıq Məclisi idarə heyətinin üzvləri, “Cavad xan” Tarix-Mədəniyyət Fondunun vitse-prezidenti Müzadil Həsənov və başqaları iştirak ediblər.



Biləsuvar Regional Mədəniyyət İdarəsi Salyan rayon Mədəniyyət Mərkəzinin Noxudlu kənd Sənətkarlıq evində Aşıq Ələsgərin 200 illik yubileyi ilə əlaqədar tədbir keçirilib.

Ağcabədi Regional Mədəniyyət İdarəsi Ağcabədi rayon Mərkəzi Kitabxanasında “Ulu öndərin siyasi irsi daim öyrənilməlidir” mövzusunda dəyirmi masa təşkil edilib. Tədbir çərçivəsində ümummilli liderin xatirəsinə həsr olunmuş sərgiyə baxış keçirilib.

Şəki Regional Mədəniyyət İdarəsi Balakən rayon MKS-nin Qaysa kənd kitabxana filialı kənddəki uşaq bağçasında “nağıl saatı” təşkil edib. MKS-nin Qullar kənd kitabxana filialında isə saz-söz ustadı Aşıq Ələsgərin 200 illik yubileyi münasibətilə “Ələsgər ocağı” adlı “mütaliə saatı” təşkil olunub.

## “Azərbaycan dili və müasir dilçilik” mövzusunda elmi konfrans

Biləsuvar Regional Mədəniyyət İdarəsinin əhatə etdiyi Neftçala rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə “AZLİNG 2021 – Azərbaycan dili və müasir dilçilik: problemlər, perspektivlər və çağırışlar” mövzusunda beynəlxalq onlayn elmi konfrans keçirilib.

Konfransda çıxış edən Milli Məclisin deputatı, Xalq şairi Sabir Rüstəmxanlı və AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoylu müasir dünya dilçilik elminin inkişafı fonunda doğma ana dilinin tədqiqinə verdikləri töhfələrə görə elm xadimlərinə təşəkkür ediblər.

Sonra konfransa fəxri qonaq qismində qatılan Pekin Xarici Dillər Universitetinin Asiya fakültəsi Türk dili kafedrasının müdiri, türkşünas-qorqudşünas, professor Lyu Gao, Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin direktoru, professor Sevinc Əliyeva və Xəzər Universitetinin təsisçisi, professor Hamlet İsaxanlı çıxış ediblər.

Virtual konfransda AMEA-nın Dilçilik, Ədəbiyyat, Şərqşünaslıq institutları, BDU, Təhsil İnstitutu, Prezident yanında Dövlət İdarəçilik Akademiyası, ADU, Bakı Avrasiya Universiteti, Pekin Xarici Dillər Universiteti və Avstraliyanın Svinbörm Texnologiya Universitetindən alim və gənc tədqiqatçıların ümumilikdə 21 məruzəsi dinlənilib.

Konfransın növbəti ildə də keçirilməsi qərara alınıb.

# Başlıbel şəhidlərinin 28 ildən sonra yenidən dəfni

1993-cü ilin aprelində Kəlbəcər rayonunun işğalı zamanı Başlıbel kəndinin ermənilər tərəfindən güllələnən 12 sakininə məxsus meyitlərin qalıqları müvafiq müayinə aparıldıqdan sonra sentyabrın 3-də əvvəlki yerdə ayrı-ayrı qəbirlərdə torpağa tapşırılıb.

Qeyd edək ki, Azərbaycan Baş Prokurorluğunun mətbuat xidmətinin 26 aprel 2021-ci il tarixdə yaydığı məlumatda bildirilir ki, 3 aprel 1993-cü il tarixdə Ermənistan silahlı qüvvələri Başlıbel kəndinə silahlı hücum edərək kütləvi surətdə kənd sakinlərinə məxsus evləri qarət edib və yandırıblar. Kəndi tərk edə bilməyən 62 nəfər təxminən 3 km aralıda, kəndin ən hündür hissəsində yerləşən “Portda” adlanan dağ relyefli ərazidəki təbii mağaralara sığınıb. Onlardan 48 nəfər Başlıbel, 1 nəfər Taxtabaşı kənd, 4 nəfər Laçın rayon sakini, 9 nəfər isə kəndi müdafiə edən hərbi qulluqçu olub.

Erməni silahlı dəstələri 18 aprel 1993-cü il tarixdə onların sığındığı yerləri axtararaq aşkar edib, köməksiz vəziyyətdə qalmış mülki şəxslərin gizləndiyi mağaraları atəşə tutmağa başlayıb. Nəticədə 12 nəfər (1 nəfər 12 yaşlı, 1 nəfər 16 yaşlı yeniyetmə, 4 qadın, 6 kişi) öldürülüb. Hücum nəticəsində 14 nəfər girov götürülüb. Həmin şəxslər sonradan girovluqdan azad edilsələr də, onlardan 9 nəfəri aldıqları mənəvi və psixoloji sarsıntılardan vəfat ediblər.

İstintaq materialları ilə həmçinin müəyyən edilib ki, erməni quldurlarından qaçaraq digər mağaralarda gizlənən 36 şəxsdən 7 nəfəri də mühasirə şəraitində aldıqları xəsarətlərdən Kəlbəcər rayonunun müxtəlif kəndlərində dünyasını dəyişib.

Sağ qalmış Başlıbel kənd sakinləri sonrakı tarixlərdə iki qrupa bölünməklə müxtəlif mağaralarda gizlənib, həyatları üçün yaranmış təhlükələrə baxmayaraq, 12 may 1993-cü ildə gecə saatlarında həmyerlilərinin qətlə yetirildiyi mağaraların yanına yaxınlaşıb və qətlə yetirilmiş 12 nəfərin meyitlərini paltarlı vəziyyətdə iki cərgə qəbirlər qazmaqla dəfn etdikdən sonra oradan uzaqlaşıblar.

Baş Prokurorluğun İstintaq idarəsinin müstəntiqləri tərəfindən məhkəmənin meyitlərin ekshumasiyası haqqında qərarına əsasən, 24 aprel 2021-ci il tarixdə Kəlbəcər rayonunun Başlıbel



kəndində müvafiq istintaq hərəkətləri keçirilərək 50 sm dərinlikdə torpağa basdırılmış 12 nəfərin meyitlərinin qalıqları aşkarlanıb.

Meyit qalıqlarından və dəfn edilmiş şəxslərin yaxın qohumları olduğunu iddia edən ailə üzvlərindən DNT təyini məqsədilə nümunələr götürülərək molekulyar-genetik və digər xüsusatların araşdırılması üçün tibbi-kriminalistik ekspertizalar aparılıb.

# Xatirələrdəki Yaşar yad edildi

Zaman və məkan anlayışlarına hökm oxuyaraq insanların qəlbində əbədi yer tutan sənətkarlardan biri idi Yaşar Nuri. Bu fakt Xalq artisti, müxtəlif səpkili rolların mahir ifaçısı Yaşar Nurinin anadan olmasının 70-ci ildönümü münasibətilə məzarı başında dilə gələn xatirələrdə və sənətkara alqışda bir daha təsdiqlənmiş oldu...

Sentyabrın 6-da Azərbaycan Teatr Xadimləri İttifaqının, sənətkarın uzun illər çalışdığı, ikinci evi hesab etdiyi Akademik Milli Dram Teatrı kollektivinin üzvləri, teatrsevərlər görkəmli aktyorun II Fəxri xiyabanda məzarını ziyarət etdilər.

Milli teatr və kino sənətimizin inkişafında özünəməxsus yeri olan Yaşar Nurinin obrazı sənət dostlarının, vaxtilə bir səhnəni bölüşdüyü həmkarlarının xatirəsi işığında yenidən xatırlandı.

Teatr Xadimləri İttifaqının sədr müavini, Xalq artisti Hacı İsmayılov Yaşar Nurinin xatirəsinin hər kəsin qəlbində əbədi qalacağını, onun daim belə sevgi və rəğbətlə yad ediləcəyini dedi. Aktyorun dillər əzbəri olan rolları, teatr səhnəsində, kinoekranda həyat verdiyi obrazları sayəsində neçə-neçə onilliklər adlayacaq sənətkar ömrünə nəzər salan Hacı İsmayılov onunla bağlı xatirələrini dilə gətirdi, illər öncəyə qayıdaraq tərəf-müqabili olduğu səhnə nümunələrindən, hər birinə özünəməxsus yozum qatdığı rollarından danışdı.

Xalq artisti Rafiq Əzimov hələ uşaqlıqdan teatrda yetişən, sənətin xırdalıqlarını erkən yaşlarından mənimsəyən və onu ilahi vergisi olan istedadı ilə cilalayan Yaşar Nuri sənətinin əlçatmaz olduğuna diqqət çəkdi. Bildirdi ki, Yaşar fitrətən aktyor idi və o, səhnəyə çıxdığı andan, heç bir kəlmə söz demədən də tamaşaçı ilə sirli-sehrli dialoqa girir, onları ram edirdi.





Aktyorun sənət dostu, Xalq artisti Nurəddin Mehdixanlı isə sənətə, sənətkara xüsusən bu ağır məqamda, pandemiyanın teatr, səhnə adamlarını küsdürdüyü, ruh düşkünlüyünə saldığı zamanda diqqətin vacib olduğunu dedi. Bu mənada yubilyarın xalq tərəfindən daim sevgi, rəğbətlə xatırlanmasından məmnunluğunu ifadə etdi. Aktyor həmkarlarına Yaşar Nuri sənətkarlığında, onun kimi teatr, səhnə işığında yaşamağı arzuladı. Onları həmrəy olmağa çağırdı, bu mürəkkəb dönəmdən yalnız bir-birinə diqqət və qayğı sayəsində çıxmağın mümkünlüyünü vurğuladı. Bildirdi ki, Yaşar Nuri kimi böyük sənətkarlar xalqın qəlbində əbədi yaşayacaq.

Xalq artisti Əli Nur isə tələbəlik, gənclik illərinə qayıdaraq sənətkarla bağlı kövrək xatirələrini danışdı. Bildirdi ki, o, müəllimlərinin "Sən böyük sənətkar olacaqsan" təyininin əbəs olmadığını ilk rollarında sübut etdi. Zəhməti ilə istedadını, teatra sevgisi ilə həyata bağlılığını bir araya gətirən sənətkar məhz buna görə əbədiyaşarlıq qazanıb.

Akademik Milli Dram Teatrının direktor müavini Hacıbaba Məmmədov isə sənətkarın yubiley tədbirinin planlaşdırıldığını, lakin pandemiya səbəbindən təxirə düşdüyünü və teatrın zəngin tarixində Yaşar Nuri imzasının daim ehtiramla xatırlanacağını bildirdi.

Sonra sənətkarın həyat yoldaşı Rəhimə Nuriyeva Yaşar Nuri işığına toplaşanlara təşəkkür etdi, onun daim xalqın, sənətsevərlərin qəlbində yaşayacağına inandığını dedi. Bildirdi ki, sənətkara diqqət, onun xatirəsinə ehtiram elə xalqa, teatra, insanlığa sevgidir.

**HƏMİDƏ**

## "Quyu" bədii filminin çəkilişləri tamamlanıb

C.Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasının istehsal etdiyi "Quyu" qısametrajlı filminin çəkilişləri sona çatıb.

Kinostudiyadan bildirilib ki, çəkilişləri əsasən Bakı şəhərinin Lökbatan qəsəbəsi və İsmayıllı rayonunda aparılan film dram janrındadır, məzmununu insan və yaradılış fəlsəfəsinə dini yanaşma təşkil edir.

Filmin qəhrəmanı həyatın tamamilə öldüyü bir məkanda quyu qazaraq varlığın mənbəyi və əsası olan su axtarışında olan insandır. Amma suyu tapdıqdan sonra nəfsinə güc gələ bilməyən qəhrəmanın səyahəti tamam fərqli və gözlənilməyən istiqamətdə dəyişir.



Filmin ssenari müəllifi və rejissoru Rufat Ray, təsvir rejissoru Nadir Mehdiyev, rəssamı isə Rafiq Nəsirovdur. Rollarda Pərviz Məmmədrzayev və Şamil Süleymanlı yer alıb.

Qeyd edək ki, film hazırda "post-production" mərhələsindədir və növbəti il izləyicilərə təqdim ediləcək.

## "Aşıq Ələsgərlə bağlı dastan-rəvayətlər" çapdan çıxıb

Çoxəsrlik aşıq sənəti ənənələrinə yeni məzmun qazandıran, xalq ruhuyla səsləşən əsərlər yaradan Aşıq Ələsgərin zəngin poetik irsinə həmişə böyük diqqət göstərilib, şeirləri nəşr olunub, sözləri aşıqlarımızın repertuarında daim mühüm yer tutub. Onun şeirləri bəstəkarların da diqqətini çəkib, bu gün də könülləri oxşayan mahnılar bəstələnir. Milli-mənəvi dəyərlərimizə həmişə böyük qayğı göstərən ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə bu böyük saz və söz ustadının 150 illik yubileyi respublikamızla yanaşı, Moskvada da təntənəli şəkildə qeyd olunub.




Bu il ölkəmizdə Aşıq Ələsgərin anadan olmasının 200 illik yubileyi qeyd edilir. Prezident İlham Əliyev bununla bağlı 18 fevral 2021-ci il tarixdə sərəncam imzalayıb.

Bu sərəncamdan irəli gələn vəzifələrin həyata keçirilməsi istiqamətində ölkəmizdə indiyədək bir sıra işlər görülüb. Azərbaycan Aşıqlar Birliyi (AAB) də yubileylə bağlı hələ ilin əvvəlindən geniş tədbirlər planı hazırlayıb. İlk dəfə olaraq hər şeirin hansı aşıq havaları üstə oxunması və yabançı sözlərin izahı verilməklə Aşıq Ələsgərin lirik şeirlərindən ibarət ayrıca kitab hazırlanıb. Klassik və müasir aşıqların ifasında Aşıq Ələsgərin sözlərindən və ustadla bağlı dastan-rəvayətlərdən ibarət video və audio disk buraxılıb.

Bu yaxınlarda Aşıqlar Birliyinin ustadlar ustadının yubileyinə yeni bir töhfəsi – "Aşıq Ələsgərlə bağlı dastan-rəvayətlər" kitabı sənətsevərlərin, elmi ictimaiyyətin və geniş oxucu kütləsinin ixtiyarına verilib. Bu barədə məlumat verən AAB-nin katibi, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu bildirib ki, kitabda ustad sənətkarın ömür və sənət yolunun maraqlı, unudulmaz məqamlarından söz açılan 30-a yaxın dastan-rəvayət yer alıb. Bu dastan-rəvayətlərin bəziləri hələ aşığın sağlığında, əksəriyyəti isə sonrakı dönəmlərdə aşıqlar tərəfindən düzülüb-qoşulmuşdur. Burada xronoloji-bioqrafik əhvalatlar, eləcə də, xalq təxəyyülündən doğan epik mətnlər, aşıqların, o cümlədən də elin arzu-istəklərindən irəli gələn xoşməramlı səfərlər və qarşılaşmalar yer alıb.

Kitabda dastan-rəvayətlərdə işlənmiş ərəb və fars mənşəli sözlərin, eləcə də arxaizm və məhəlli sözlərin izahı, "Qeydlər və izahlar" bölümündə yer almış dastan və rəvayətlərin yaranma tarixi, hansı aşıqların dilindən yazıya alınması və indiyədək nəşr olunduğu mənbələr haqqında məlumat verilir.

Kitabı nəşrə hazırlayanlar AAB-nin sədri, Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı, filologiya elmləri doktoru, professor Mahmud Allahmanlı və filologiya üzrə fəlsəfə doktoru Aynur Xəlilova, elmi məsləhətçi AMEA Nizami adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli, redaktoru filologiya üzrə fəlsəfə doktoru, dosent Altay Məmmədlidir.

# Bu da olsun "postteatr"ın ilk məşqi

Bizim bəzi teatr adamları özlərini təzə-təzə postdramatik sözünə, yəni az mətn, çox hərəkət teatrı mülahizəsinə öyrəşdirmişdilər ki, bir "post" da bu yandan zühur edib, bütün mizan-tərəzini pozdu. Hərçənd ilyarımdan çoxdur bütün dünyanı cəngində saxlayan, bütün həyati vacib nəsnələri ələyindən keçirib koronavirus pandemiyasının nə vaxt bitəcəyini və gerçəkdən postpandemiya dövrünün nə vaxt başlayacağını kimsə bilmir.

Bu bəşəri bəlanın yaradıcılıq sənayesinə vurduğu ziyandan, xüsusən teatrın başına açdığı hoqqalardan danışıb başağrısı verməyəcəyəm. Məşhur filmdə deyildiyi kimi, "Sənə əjdaha lazımdı?". Yox, məsələn, mənə sadəcə, teatr lazımdı. İstər akademik səviyyədə, dəbdəbəli salonlarda dekorasiya-səhnə tərtibatı ilə olsun, istərsə də küçədə, açıq havada performans dediyimiz nümayiş. Əsas odur tamaşa göstər, sənət göstər.

Giley dolu tamaşaçı monoloqunu istənilən qədər uzatmaq da olardı. Amma yazı-tamaşamızın hakimi-mütləqi, daha doğrusu, oxunuş-məşqimizin müştərək rejissorları "imkan" vermirlər...

Namiq Ağayev və Mikayıl Mikayılov. Hər ikisi maraqlı və zövqlü rejissorlardır. Ənənəvi komplekslərdən də çoxdan arınıblar. Ona görə də mövzuya kənardan, bir az da cəsarətli baxa bilirlər. Ən əsası isə, özlərinə, daha doğrusu, həmkarlarına, tənqidi yanaşa bilirlər.

İlk oxunuşdan öncə nəzəri mərhələyə başlayırıq. Söhbət, yəni rejissor izahı, yəni quruluş planı alınsa, keçəcəyik praktiki mərhələyə. Görək aktyor (oxucu) ilə dialoq, daha doğrusu, dinləmə necə alınacaq.

Namiq Ağayev söhbəti daha çox rejissor həmkarları üzərində qurdu və pandemiyanın teatr sənətində bərqərar etdiyi bu sükutu onların poza biləcəyini dedi: "Oturub bədbinliyə qapılmaq yalnız özümüzə ziyandır. Teatr birmənalı küçələrə, meydanlara çıxmalıdır. Demirsiz ki, teatr cəmiyyətin öndəridir? Buyurub səhnədən ensin, küçəyə çıxsın. Bundan faciə düzəltmək də lazım deyil. Teatrın bundan da çətin günləri olub. İkinci Cahan savaşında bu forma tətbiq olunub və teatr açıq havada oynanılıb. İndi də küçə tamaşaları qoymaq olar. Şükür, dövlət teatrı maliyyələşdirir, əməkhaqlarını hamısı, yəni bütün işçiləri alır, onlar özləri də işləmək istəyirlər. Sadəcə, yeni formaları sınamaq yadlarına düşmür. Onlara küçə tamaşaları qoymaq qəribə gəlir".


Mikayıl Mikayılov

Təbii ki, rejissorun bu fikri müəyyən müzakirəyə səbəb ola bilər və müdaxilə etməyə bilmirəm: "Namiq müəllim, deyirsiz küçədə tamaşa göstərilsin. Yaxşı, görək o formatda tamaşanı ərsəyə gətirəcək heyətimiz var? Tutaq ki, aktyorlar var, bəs rejissorlar? Nəzəri və praktiki bilgiləri yalnız ənənəvi, qapalı səhnə üçün alan rejissordan küçə performansı, meydan oyunu gözləmək – təbii ki, söhbət keyfiyyətli, peşəkar işdən gedir – nə dərəcədə realdır? Yəni alternativ teatr formalarını realizə edə bilən rejissorlarımız kifayət qədərdirmi?". Sualıma ironiyalı cavab aldım.

Namiq Ağayev: "Adı rejissordursa, eləməlidir də. Baletdən kukla tamaşasınadək özünə rejissor deyən şəxs onu qurmağı bacarmalıdır. Hər bir rejissorun quruluşunda olduğu kimi, öz peşə yanaşmasında da ali məqsəd, ideya olmalıdır. Teatr ən avanqard sənət növüdürsə, ona özünü sərf edən adamlar da elə o düşüncədə olmalıdır. Baxın, bu gün biz müharibədə Qələbə çaldıq, qəhrəmanlıq obrazı, əzmkarlıq, yüksək yaradıcılıq, quruculuq əhval-ruhiyyəsi var. Teatrda, sənətdə isə qəribə bir yorğunluq, susqunluq, gözləmə. Proses bizim yanımızdan axıb gedir və biz, sadəcə, tamaşaçıya çevrilirik. Məncə, yaradıcı təşkilatlar bir az özlərinə kənardan baxmalıdır.

İndi kimisə qınamaq da yaxşı çıxmır. Ona görə də konkret təkliflərimi verirəm və xüsusən bölgələrdəki teatrlardan hərəkət gözləyirəm. Çünki pandemiya şəraitində az-çox diqqət çəkə bilərlər. Bu susqun dövrdən də ağıllı istifadə mümkündür. Sadə, adi səhnə aktları ilə də fikir formalaşdırmaq, teatr ictimaiyyətinin gündəminə gəlmək olar. Bu mənada rahatlıqla rayonlarda, açıq havada – məkana uyğunlaşdırılmış nümayişlər eləmək olar. Beynimdə artıq bir quruluşun həllini də vermişəm. Təbii ki, bu, kukla tamaşası, bir növ yürüşü olacaq. Kukla teatrların janr olaraq avanqardıdır axı. Durub küçədə Çexovu oynamayacaqsan ki. Əslində, lazım olsa, onu da oynamaq olar.

Bütün hallarda hazırkı prosesdə aktiv tərəf mütləq rejissorlar olmalıdır. Çünki tamaşa, teatr prosesində yaradıcı lider rejissordur. Təklif, ideya, iş olandan sonra inzibati məsələlər həllini tapar. Hər halda inanmıram ki, yaxşı nəticəni, teatrının xeyrinə olan addımı dəstəkləməyən, görməyən direktor ola. İndi heç bir teatrda çalışmıram deyə rahat fikir yürüdürəm və sizi əmin edirəm ki, keyfiyyətli, peşəkar iş hər bir teatr rəhbərinin arzusudur və bu mənada maraqlı tərəf daim məhz rejissor həmkarlarım olmalıdır.

"Yeni format necə olmalıdır" sualına cavab olaraq deyim ki, əslində, tamaşaları kino dilinə çevirmək lazım idi, özü də çoxdan. Çünki hələ sovet dönəmində bundan böyük təcrübə qazanılıb. Xatırlayıram "teatr tamaşasına efirdən baxarkən teatr özəlliyi qorunmalıdır, yoxsa kino" sualı ətrafında xeyli müzakirələr gedirdi. Yəni bu forma da yeni deyil. Teatra kino estetikasını gətirmək onda da gündəmə gəldi və kifayət qədər maraqlı nümunələr yarandı. Təəssüf ki, onu bizdə tətbiq edən quruluş müəllifləri yetişmədi.

Elə teatr ideyaları var ki, onu kino dili ilə çəkib, elə kino məhsulu kimi də təqdim etmək olar. Əslində, dövr elə gəlib ki, kino ilə teatrın birləşməsi, harmoniyası lazımdır. Çünki hər ikisi uduzmuş vəziyyətdədir. Hazırda sırf bizim caməədə ağır bir laqeydlik hökm sürür. Bu isə yaradıcı mühiti geri qoyur. O yaradıcı mühit ki, zehniyyət keçmişin nostaljisindədir və hərəkətverici qüvvəni kənarda axtarırlar. Amma həm də teatr, proses üçün darıxıblar və buna görə də ilk vaxtlar həvəslə oynayacaq, nə isə cəhdlər edəcəklər, sonrası da yenə eyni mənzərə.

Özüm üçün bunun bir səbəbini də tapmışam: cəmiyyətdə rejissor peşəsinin əhəmiyyəti azalıb, bir növ operator da, aktyor da, prodüser də rejissor olur, kəmiyyət artır, keyfiyyət aşağı düşür. Məsələn, kino, teatr rəssamı, işıqçı, ümumən yetəri qədər faydalı, gəlirli sahələr olduğu halda hamı rejissor olmaq istəyir. Liderlik, söz haqqının tanınması ehtiyacı var axı hamısında. Bu, bir az da şöhrətpərəstliklə bağlıdır. Nəticədə məhsul hazırlayan məhsuldan qat-qat çox olur".


Namiq Ağayev

Son dövrlər milli teatrımızda baş verən istənilən narazılığa səbəbkar da tapmışıq – rəhbər. Beləcə, az qala aktyorun səhnədə büdrəməsindən tamaşanın festival qapısından girməməsinədək bütün düyünlərin açarı rəhbər şəxslər göstərilir. Hamımız "yeni idarəetmə sistemi", "özü işləyən sistem", "inzibati və yaradıcı işin bir şəxs tərəfindən idarə olunması" ətrafında danışırıq və məhz bununla bütün problemlərin həll olunacağını düşünürük. Bu "rəhbərsiz idarətemə" çağırışları sayəsində əsas məram unudulur: keyfiyyətli iş. Keyfiyyətli iş isə yaxşı, peşəkar quruluş və təqdimatdır ki, burada inzibati idarəetmə teatrın kandarında qalır. Uzun sözün qısası, sən yüksək səviyyəli tamaşa hazırlasan, bütün peşəkar oyun üslubunu ortaya qoysan və onu tamaşaçının diqqətinə çatdırsan, kassan saat kimi işləyəcək.

Mikayıl Mikayılov: "Pandemiya dövründə teatr olaraq ciddi, böyük problemlərlə üzləşdik. Hərçənd qonşu ölkələrdə proses davam edir, tamaşalar, məşqlər gedir. Sözsüz ki, teatrların işləməməsi mədəniyyət üçün, yaradıcı sənaye üçün yaxşı hal deyil. Bizdə pandemiyadan öncəki vəziyyət də ürəkaçan deyildi. Yetərincə problemlər var idi və lap məşqlər bərpa olunarsa, ənənəvi fəaliyyət davam edərsə, o problemlər yenə də qalacaq. Çünki islahatlar olmalı, teatrın idarəetmə məsələsindən tutmuş bir çox şeylər dəyişməlidir.

Pandemiya dövründə rumınlarla onlayn tamaşa hazırladım. İndi də Qazaxıstana dəvət almışam və yeni mövsümdə orada da bir tamaşa quracam. Rusiya teatrlarında da proses gedir, teatrlar işləyir.

Teatrların dünya teatr prosesinə qoşulması yollarından biri də festivalların çoxluğudur. Ümumi yaradıcı işə xeyirdir. Pandemiyanı fürsət bilib teatrlarımızda mövcud problemlərin həlli üçün nə isə ediləcəyinə inanıram. Əsas odur ki, nə isə baş versin. Qaydalar, teatr prosesi əvvəlki kimi qalsa, müsbət nəticə gözləmək mənasızdı. Məncə, müxtəlif formatda tamaşalar olmalıdır və bütün bu tamaşaların nümayişi, idarə olunması, prodüser tərəfi, teatrın daha fəal olması üçün iş görülməlidir. Teatr inkişaf etsin, dünya prosesinə üzvi surətdə inteqrasiya etsin kimi istəklərimiz varsa, müəyyən əməli tədbir, iş də görülməlidir. Oturub nə isə icad etmək də lazım deyil, sadəcə, yaxşı müşahidə etməliyik və mövcud ənənələr üzərindən islahatlar aparmalıyıq.

Bu məqamda daha çox öz işimiz, yəni rejissura barəsində də fikirlərimizi bölüşməli və bu sahədəki problemləri də gözardı etməməliyik. Rejissor məsələsi çox vacibdir. Onun dünyagörüşü, təcrübəsi, bilgisi vacibdir. Çünki rejissor teatrın yaradıcılıq baxımından idarəedici simasıdır və məncə, bu keyfiyyətlərə malik insanlar ölkəmizdə var. Sadəcə, onlara imkan yaradılmalıdır. Nəsillər dəyişir, vaxt, zaman sürətlə axır və təəssüf ki, prosesdən geri qalırıq.

Vacib impuls lazımdır və bu platformaya gənc nəsil cəlb olunmalıdır, yeni nəfəs, baxış gəlməlidir. Mən çox istəyirəm ki, milli teatrımızda inkişaf, canlanma baş versin və potensiallı yaradıcı şəxslər teatrlara gələ bilsinlər. Onlara fəaliyyət, özlərini təsdiq üçün də şərait yaradılmalıdır. Bu mənada təkcə dövlət teatrı üzərindən çıxış etmək istəmirəm. Rəqabət, yaradıcı rəqabət və müqayisə üçün özəl teatrlara da şərait yaradılmalı, ilkin mərhələdə dəstək verilməlidir. Çünki müstəqil teatrlar ümumi prosesin hərəkətverici qüvvəsi kimi də vacibdir. Bütün hallarda yeni baxış, dünya prosesinə inteqrasiya ən ümdə məsələdir. Özü də bunun üçün bütün mexanizmlər var və hər hansı icada ehtiyac yoxdur. Sadəcə, müşahidə etməli və yaxın-uzaq ölkələrin teatr təcrübəsinə nəzər salmalıyıq".

**H.NİZAMİQIZI**

**Redaksiyadan:** *Həqiqətən də, pandemiyalı teatr məsələsi çox qəliz, baxışlar da müxtəlifdir. Amma təəssüf ki, hər danışan, mülahizə bildirən fikirlərini -malı, -məli şəkilçiləri üzərindən qurur. Ortaya konkret iş, layihə ilə çıxan yoxdur...*

№67 (1844)
8 sentyabr 2021
www.medeniyyet.az

# Xalq rəssamı, heykəltəraş Arif Qazıyev vəfat edib

Azərbaycan mədəniyyətinə itki üz verib. Tanınmış heykəltəraş, Xalq rəssamı Arif Qazıyev sentyabrın 3-də, ömrünün 85-ci ilində vəfat edib.



Arif Şamil oğlu Qazıyev 1937-ci il yanvarın 2-də İrəvan şəhərində doğulub. Müxtəlif mövzularda əsərlərin ("Qırat bizi gözləyir", "Qafqaz qartalları", "Cəngi", "Canlı qala", "Bakılı qız" və s.), görkəmli şəxsiyyətlərin heykəl və büstlərinin ("Hüseyn Cavid" – şairin Naxçıvandakı ev-muzeyində qoyulub; "Məhəmməd Nəsirəddin Tusi" – Azərbaycan Milli İncəsənət Muzeyi) müəllifidir. Sabit Rəhman, Ağasadıq Gəraybəyli, Əziz Əliyev və başqalarının xatirə lövhələrini hazırlayıb.

"Tarla gözəli" əsəri Moskvada Dövlət Şərq Muzeyində, bir sıra əl işləri ABŞ, Almaniya, Avstriya və Türkiyədə şəxsi kolleksiyalarda saxlanılır.

Sənətkarın uzun illər üzərində işləyərək ərsəyə gətirdiyi xalq qəhrəmanı Babəkin heykəli hazır olsa da, hələ ucaldılmayıb.

2018-ci ildə "Xalq rəssamı" fəxri adına layiq görülən Arif Qazıyev Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru olub.

Allah rəhmət eləsin.

# Əməkdar mədəniyyət işçisi Nairə Sadıxova dünyasını dəyişib

Mədəniyyət Nazirliyi Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinin elmi işlər üzrə direktor müavini, Əməkdar mədəniyyət işçisi Nairə Sadıxova sentyabrın 4-də, 57 yaşında dünyasını dəyişib.



Nairə Hafiz qızı Sadıxova 1964-cü il iyulun 21-də Bakıda anadan olub. Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Filologiya fakültəsini bitirib. 1989-2001-ci illərdə Mədəniyyət Nazirliyinin Muzey İşi üzrə Respublika Elmi-Metodiki Mərkəzində redaktor, böyük elmi işçi, aparıcı elmi işçi və direktor müavini vəzifələrində işləyib. 2002-ci ildən Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzində kiçik elmi işçi, böyük elmi işçi, baş mühafiz, elmi işlər üzrə direktor müavini vəzifələrində çalışıb.

Fəaliyyəti dövründə Azərbaycanda muzey işinin inkişafı, xüsusən də Azərbaycanın mədəni sərvətlərinin bərpa və konservasiyası sahəsində xidmətlər göstərib. Sərgi və treninq-seminarların təşkilində, bərpaçı-rəssamların kadr hazırlığında, peşəkar bərpaçı kurslarının təşkilində, habelə son illərdə yeni muzey binalarının tikilməsi, yenidən qurulması ilə əlaqədar həyata keçirilən bir sıra bərpa layihələrində fəal iştirak edib.

N.Sadıxova Rusiya, Gürcüstan, Belarus, Ukrayna kimi ölkələrdə, habelə Azərbaycanda təşkil olunan beynəlxalq tədbirlərdə iştirak edib. Tbilisi şəhərində "Konservasiya məsələlərində təlim və təhsil" mövzusunda təşkil olunmuş Cənubi Qafqaz regionu muzeyləri üçün seminarda və UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası və Azərbaycan Milli Xalça Muzeyinin dəstəyi ilə təşkil olunmuş "Unudulmaqda olan tikmələrin dirçəlməsi və bərpası" üzrə ustad dərslərində fəal iştirakına görə sertifikatla təltif olunub.

2017-ci ildə ölkə başçısının müvafiq sərəncamı ilə Azərbaycanda muzey eksponatlarının qorunması, bərpası və konservasiyasında səmərəli fəaliyyətinə görə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüb.

Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinin kollektivi N.Sadıxovanın vəfatı ilə əlaqədar ailəsinə, yaxınlarına dərin hüznlə başsağlığı verir. N.Sadıxovanın əziz xatirəsi uzun illər çalışdığı kollektivin üzvlərinin, onu tanıyanların qəlbində yaşayacaq.

Allah rəhmət eləsin.

## Mobil Əhmədov – 90

# Yaddaşlarda yaşayanlar

Azərbaycan mədəniyyəti tarixində elə şəxsiyyətlər var ki, həm öz dövrünün, həm də mənsub olduqları xalqın milli sərvətinə, milli mədəniyyət tarixinin bir parçasına çevriliblər. Belə sənətkarlardan biri də mərhum Xalq artisti, cəmiyyətin Mobil kimi tanıdığı Müğbil Əhmədovdur. Sentyabrın 10-da görkəmli sənətkarın anadan olmasının 90 illiyidir.



Müğbil Salman oğlu Əhmədov (Mobil Əhmədov) 1931-ci ildə Gəncədə məşhur zərgər Məşədi Ağamirzənin (ana babası) ailəsində dünyaya gəlib. 1955-ci ildə Əzim Əzimzadə adına Rəssamlıq Məktəbinə daxil olub. Bir il sonra Azərbaycan Dövlət Konservatoriyasına qəbul edilərək SSRİ Xalq artisti Bülbülün sinfində təhsil alıb.

Sənətkarın təhsil illəri ilə bağlı qızı Nigar Əhmədova xatirələrini bizimlə bölüşür: "Atam orta təhsil illərindən rəssamlığa meyilli olub. Bu da səbəbsiz deyildi. Həmin illərdə Gəncə Dövlət Dram Teatrının rəssamı kimi çalışan Böyükbəy Əliyarbəyli şəhərdə rəssamlıq məktəbi açmışdı. Yeniyetmə və gənclərin çoxunun ən böyük arzusu bu məktəbdə oxumaq idi. Atam iki il burada rəssamlığın sirlərini öyrənməklə yanaşı, Mirzə Ələkbər Sabir adına 5 saylı şəhər tam orta məktəbində təhsilini davam etdirib. 1955-ci ildə orta məktəbi bitirib. Ancaq o, iki sənət seçimi qarşısında qalıb: müğənnilik, yoxsa rəssamlıq? Təbii ki, uşaqlıq arzusu və ürəyinin səsi onu Əzim Əzimzadə adına Dövlət Rəssamlıq Məktəbinə gətirib. Nədənsə burada da atamın əl işləri "qeyri-adi" hesab olunub. Onun rəsmləri kompozisiya baxımından bitkin, rəng koloriti əlvan və cazibəli, obrazları isə canlı olduğundan komissiyada şübhə doğurub. Buna görə də qərara gəliblər ki, atamı əyani şəkildə yoxlasınlar. Müəllimlərin kiçik sınağından uğurla çıxan atam şübhələri alt-üst etməyi bacarıb. Çəkdiyi natürmort onların çox xoşuna gəlib və komissiya üzvlərinin yekdil qərarı ilə o, birbaşa ikinci kursa qəbul olunub. Elə həmin gün qalması üçün ona yataqxanada yer də veriblər. Çox keçməyib məktəbin ən istedadlı və çalışqan tələbəsi olaraq Repin adına təqaüdə də layiq görülüb".

50-ci illərin sonlarında Azərbaycanın bir qrup incəsənət xadimi vokal qabiliyyəti olan məktəbliləri seçmək məqsədilə vaxtaşırı ölkənin müxtəlif bölgələrinə ezam ediliblər. Növbəti səfər Gəncəyə olub. "İstedadlar axtarırıq" devizi altında şəhərin özfəaliyyət dərnəklərində olan növbəti seçim-baxış Mahud fabrikinin klubunda təşkil edilib. Bu zaman Müğbil Əhmədovun uşaqlıq dostu olan Xəlilin məsləhəti ilə o özünü bu baxışda sınamaq istəyib. Nigar Əhmədova bu barədə deyir: "Atam bu müsabiqədə "Evləri var xanə-xanə" xalq mahnısını və Tofiq Quliyevin "Neftçilər" mahnısını ifa edib. Onun şaqraq səsini dinləyib məmnun olan Fikrət Əmirov 21 yaşlı atama mütləq Bakıya gedib musiqi təhsili almasını tövsiyə edib".

M.Əhmədovun konservatoriyaya qəbul olunmasının da maraqlı tarixçəsi var. 1956-cı ildə hərbi qeydiyyata düşmək məqsədilə qış tətili günlərində Gəncəyə qayıtmağa hazırlaşıb. Bakının Dəmiryolu Vağzalında vaxtın çox olmasından istifadə edərək ətrafda bir qədər gəzişmək qərarına gəlib. Konservatoriya binasının yanından keçəndə musiqi sədaları gələn tərəfə boylanıb. Bu haqda atam belə danışırdı: "Mən alnımı pəncərənin soyuq şüşəsinə dirəyib xeyli qulaq asdım. Mahnı bitmişdi, ancaq mən gözlərimi içəridən çəkə bilmirdim. İçəridən mənə işarə etdilər ki, nə istəyirəm. Əlimi qulağımın dibinə qoyub işarə etdim ki, mən də oxumaq istəyirəm. Məni içəri dəvət etdilər. Vokal müəllimi olan Pəri xanım məndən soruşdu ki, nə oxuya bilirsən? Dedim ki, "Evləri var xanə-xanə". Burada pianonun müşayiəti ilə ən çox sevdiyim həmin mahnını oxudum. Pəri xanım çox sevindi və tələsik yır-yığış edərək "arxamca gəl" dedi. O, məni həmin binanın ikinci mərtəbəsinə çıxarıb iri bir otağa apardı. Bura, bildiyim qədər, rektorun otağı idi. Burada ilk dəfə idi ki, Bülbülü görürdüm. Onun bütün hərəkətlərinə, geyiminə, danışığına heyranlıqla tamaşa edirdim. O, məsələnin nə yerdə olduğunu öyrənəndən sonra üzünü mənə tutub dedi:

– Gəncəli balası, nə oxuya bilirsən?

Mən özüm də bilmədən "Koroğlunun ariyası"nı, dedim.

Ustad gülümsündü.

– Bala konservatoriyanı bitirənlər "Koroğlunun ariyası"nı oxuya bilmirlər, sənə ariya oxumaq hələ çox tezdir. Bəlkə bir xalq mahnısı oxuyasan?

– "Evləri var xanə-xanə"ni oxuyummu?

– Oxu, gülüm, dedi ("gülüm" ifadəsi Bülbülün müraciət forması idi).

Mən böyük həvəs və həyəcanla oxudum, hamı susub durdu və professorun nə deyəcəyinə qulaq kəsildi. Əlbəttə, ən çox həyəcan keçirən mən idim.

Professor üzünü rektor Əşrəf Abbasova tutaraq:

– Onda talant var, ancaq musiqi təhsili yoxdur. Mütləq oxumalıdır. Mən məmnuniyyətlə onu öz sinfimə qəbul edərəm, – dedi.

Əşrəf müəllim:

– Heyf ki, nə az, nə də çox düz altı ay gecikib.

Professor dedi:

– Bu, asan məsələdir. Gəlin, biz onu hazırlıq kursuna götürək, oxusun. Sentyabrda qəbul edək konservatoriyanın birinci kursuna. Çünki bunu indi əldən buraxsaq, bir də Allah bilir, neçə ildən sonra gəlib çıxacaq.

Belə də razılığa gəldilər. Həmin gecə qatara aldığım bilet cibimdə qaldı. Rəssamlıq Məktəbi ilə vidalaşıb səhəri günü müğənni Firudin Mehdiyevlə məşğul olmağa başladım. Yeni tədris ilində isə dünya şöhrətli müğənnimiz, görkəmli vokal ustası Bülbülün sinfində təhsil alan altı tələbədən biri də mən oldum".

Bu illərdə Rauf Hacıyev "Biz Bakıdanıq" adlı caz-orkestr yaratmışdı. Kollektivdə Oqtay Ağayev, Natəvan Şeyxova, Elmira Rəhimova ilə birlikdə artıq Müğbil Əhmədov da oxuyurdu. Xatırlatmaq istərdim ki, o illərdə Müğbil Əhmədov və onun sənət dostları "Biz Bakıdanıq" orkestri ilə keçmiş ittifaq üzrə yüzə qədər şəhərdə qastrol səfərlərində olmuşlar. O, konservatoriyada oxuduğu zaman Ramiz Mustafayevin rəhbərlik etdiyi Azərbaycan Dövlət Teleradio Komitəsinin orkestrində solo-ifaçı kimi də çıxışlar edirdi. Onu da qeyd edək ki, həmin vaxt bəstəkar Süleyman Ələsgərov M.Əhmədovu Musiqili Komediya Teatrına dəvət edir. Çünki Lütfiyar İmanov Opera və Balet Teatrına keçdiyindən Musiqili Komediya Teatrında baş rolları oynayacaq vokalçı-tenor yox idi. Bu səbəbdən də o, konservatoriyanı bitirməsə də, teatrda işlə təmin edilmişdi.

M.Əhmədov ömrünün 45 ilini Musiqili Komediya Teatrına həsr edib. Onun bu səhnədə yaratdığı ilk obraz bəstəkar Hacı Xanməmmədovla dramaturq Məhərrəm Əlizadənin birgə qələmə aldıqları "Bir dəqiqə" operettasında Tuqay surəti olub. Sənətkar bu teatrda 70-dən artıq müxtəlif səpkili, bitkin obrazda çıxışlar edib. Onun klassik musiqili səhnə əsərlərində yaratdığı obrazlar xüsusilə gənc aktyor məktəbinin yetişməsində mühüm rol oynayıb. Ü.Hacıbəylinin "Məşədi İbad" və "Arşın mal alan"ında Sərvər, Rüstəm bəy və Əsgər, M.F.Axundzadənin eyniadlı pyesi əsasında libretto müəllifi Şəmsi Bədəlbəyli, bəstəkarları Ramiz Mustafayev və Vasif Adıgözəlov olan "Hacı Qara"da Heydər bəy, C.Məmmədquluzadənin pyesi əsasında libretto müəllifi Cənnət Səlimova, bəstəkarı Oqtay Kazımov olan "Danabaş kəndinin əhvalatları"nda Məhəmmədhəsən əmi, həmçinin H.Seyidbəyli və T.Quliyevin "Qızıl axtaranlar"ında Nadir, M.Şamxalov və Z.Bağırovun "Qayınana"sında Ayaz, M.Əlizadə və F.Əmirovun "Gözün aydın"ında Alay, S.Rəhman və S.Ələsgərovun "Ulduz"unda Bəxtiyar və s. obrazlar tamaşaçılar tərəfindən maraqla qarşılanıb. Onun xarici müəlliflərin əsərlərində (L.Cubabiriya və Ş.Miloravanın "Tiflis nəğməsi"ndə Zurab, V.Dolidzenin "Keto və Kote"də Kote və s.) ifa etdiyi partiyalar da öz sənətkarlığı ilə seçilib.

Yaradıcılıq meyarlarına xüsusi önəm verən M.Əhmədov aktyor və obraz haqqında söhbət düşərkən deyirdi: "Hamı tərəfindən qəbul olunan belə bir standart fikir mövcuddur ki, artist yaratdığı obrazın bütün xarakterik çalarlarını tamaşaçıya çatdırmalıdır. Bu, əlbəttə, belədir. Amma mənim fikrimcə, aktyor istənilən rolu ifa edərkən yaratdığı obrazdan daha çox öz şəxsiyyətini, tutumunu, ruhi aləmini tamaşaçı üçün aydınlaşdırır. Və bunun nəticəsində, tamaşaçı ya aktyoru sevir, ya da səhnədə ona uzun illər, sadəcə olaraq, dözür. Üçüncü variant yoxdur".

Görkəmli bəstəkar, Xalq artisti Vasif Adıgözəlov M.Əhmədovun sənətkarlığı haqqında deyib: "Onun Musiqili Komediya Teatrına gəlişindən sonra bizim bəstəkarlarımız mürəkkəb vokal partiyalara malik operettalar yazmaqdan daha çəkinmirdilər. Çünki bilirdilər ki, burada artıq belə çətinliklərlə bacaran sənətkar var. Odur ki, musiqi səhnəmizin inkişafının müəyyən mərhələsini M.Əhmədovun adı ilə bağlamaq olar".

M.Əhmədovun səhnə fəaliyyətindən söz düşərkən, mübaliğəsiz demək olar ki, onun yaradıcılığında musiqili komediya tamaşaları üçün yazılan librettolarda komik qəhrəman, yəni əsas personaj ancaq mənfi tip olaraq göstərilmirdi. Məhz bu obrazlar səhnədən tamaşaçını güldürdüyü, əyləndirdiyi kimi, həm də düşündürürdü. Sözsüz ki, səhnə yaradıcılığında onun tipajlarının hər birində səs, vokal xüsusiyyətləri də nəzərə alınırdı. Aktyor hər zaman bu kimi xüsusiyyətlərlə hər bir obrazı tükənməz yumor hissinə malik xüsusiyyətləri ilə tamaşaçıya təqdim etməyə müvəffəq olurdu. Buna görə də aktyorun səhnədə yaratdığı obrazları böyük və kiçikliyindən asılı olmayaraq, köməkçi rollar statusunda olmurdu.



Sənətkarın yaradıcılıq xüsusiyyətləri barədə qızı Nigar Əhmədova deyir: "Zamanında teatrın aparıcı aktyoru, yeganə tenor olan bir vokalçıya 47 yaşında Əməkdar artist adı verildi. Xalq artisti adına isə 69 yaşında layiq görüldü. Bunun bir səbəbi onun yaradıcılığına göstərilən laqeydlik idisə, digər səbəbi də özü idi. O, heç zaman heç nə üçün heç kimə ağız açmazdı. İrad tutan zaman isə hər vaxt deyərdi ki, mənim adım Müğbildir. Ərəbcə "müğbil" "xoşbəxt" deməkdir. Bəli, mən xoşbəxtəm. Xoşbəxtəm ki, nəslim-nəcabətim var. Lakin sosial mənşəyimə görə başım çox bəlalar çəkib. Mənimlə həmişə gizli müharibə aparıblar, mənə zərbələr vurublar. Amma əsas odur ki, mən bunların heç birinə fikir verməmişəm".

M.Əhmədov uzun illər müxtəlif təhsil ocaqlarında pedaqoji fəaliyyət göstərib. Hətta o, sənət dostlarının yüzlərlə şarjını çəkib. Azərbaycan Dövlət Akademik Musiqili Teatrında "Beş manatlıq gəlin" və "Danabaş kəndinin əhvalatı" tamaşalarının səhnə tərtibatı, geyim eskizlərinin müəllifi olub. Xoşbəxt taleli sənətkarın Azərbaycan Radiosunun fondunda 600-dən çox lent yazısı var. O, "Qara daşlar", "Yeni il gecəsində", "Aktrisanın təbəssümü", "Üzeyir ömrü" və "Məkanın melodiyası" filmlərində də maraqlı ifa tərzi ilə yaddaşlarda yaşayır.

Xalq artisti Müğbil Əhmədov 2006-cı il iyun ayının 3-də, 75 yaşında vəfat edib və vəsiyyətinə uyğun olaraq Gəncə şəhərində yerləşən Səbizkar qəbiristanlığında dəfn olunub.

**Anar BURCƏLİYEV**
**teatrşünas-tənqidçi**

# Novator dilçi-türkoloq

Azərbaycan dilçilik elmində cığır açan, məktəb yaradan alimlərimizdən biri də Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, akademik Ağamusa Axundov olub. O, sanballı tədqiqatları ilə dilçilik elmimizə və türkologiyaya yeni anlayışlar gətirib, novator alim kimi tanınıb.

Ağamusa Ağası oğlu Axundov 2 fevral 1932-ci ildə Kürdəmir şəhərində dünyaya göz açıb. Orta məktəbi bitirdikdən sonra 1950-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Filologiya fakültəsinə qəbul olunur. 1955-ci ildə ali təhsilini uğurla başa vurduqdan sonra üç il həmin universitetin aspiranturasında oxuyur. Əmək fəaliyyətinə də elə 1958-ci ildə məzunu olduğu universitetin Filologiya fakültəsində başlayır. Həmin il "Azərbaycan dilində feilin zamanları" mövzusunda namizədlik (fəlsəfə doktoru) dissertasiyası, 1964-cü ildə doktorluq dissertasiyasını müdafiə edir. Üç il sonra – 1967-ci ildə isə professor elmi adını alır. O, bu təhsil ocağında 1990-cı ilədək fəaliyyət göstərir. Burada müəllim, baş müəllim, dosent, professor, kafedra müdiri və dekan vəzifələrində çalışır. Pedaqoji fəaliyyətlə yanaşı, 1959-1965-ci illərdə Azərbaycan Dövlət Dillər İnstitutunda (indiki ADU) ikinci ali təhsil alır. Dilə xalqın özünüdərkinin atributu kimi yanaşan alim dövlət müstəqilliyinin bərpasından sonra yeni şəraitdə ölkədəki milli dil quruculuğu proseslərinin fəal iştirakçısı olur.

Araşdırmalarda bildirilir ki, Azərbaycan dilinin fonemlər sisteminə dair ilk mükəmməl əsərin müəllifi Ağamusa Axundov olub. Alimin dilçiliyin bütün sahələri üzrə, o cümlədən qrammatika, nəzəri dilçilik, tarixi fonetika, etimologiya, dil tarixi, dialektologiya, üslubiyyat və nitq mədəniyyəti ilə bağlı problemlərin yüksək nəzəri-metodoloji şərhini və həllini tapmış əsərləri elmi ictimaiyyət tərəfindən maraqla qarşılanıb.



Akademik A.Axundov "Dil və üslub məsələləri", "Feilin zamanları", "Dilçiliyə giriş", "Ümumi dilçilik", "Riyazi dilçilik", "Azərbaycan dilinin fonetikası", "Dilçiliyin tarixi, nəzəriyyəsi və metodları", "Dil və ədəbiyyat" (2 cilddə), "Azərbaycan dilinin izahlı lüğəti", eləcə də bir sıra monoqrafiya və 500-dək elmi məqalənin müəllifidir. Onun elmi rəhbərliyi altında 40-dək fəlsəfə və elmlər doktoru hazırlanıb.

Qahirənin Eyn-Şəms Universitetində, Tokio Universitetində Azərbaycan dili və ədəbiyyatından mühazirələr oxuyan alim Praqa, Ankara, İstanbul, Belqrad və Budapeşt şəhərlərində beynəlxalq elmi konfranslara qatılıb. Azərbaycan Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin, Gürcüstan EA Dilçilik İnstitutunun və Bakı Dövlət Universitetinin doktorluq dərəcəsi verən ixtisaslaşmış müdafiə şuralarının, "Sovet türkologiyası" kimi nəşrlərin redaksiya heyətlərinin üzvü olub.

Akademik İsa Həbibbəyli alimin elmi tədqiqatlarından bəhs edərkən yazır: "Azərbaycan şeirində qapalı hecadan açıq hecaya, örtülü hecadan örtüsüz hecaya doğru inkişaf proseslərinə dair müşahidələri şeirşünaslığın Ağamusa Axundov nəzəriyyəsi adlandırıla bilər. Eyni zamanda dil attraksiyası hadisəsindən həm sintaktik konstruksiyalar, həm də bədii dilin imkanları kimi bəhs etmək vəzifəsinin hər iki qütbünün mükəmməl nəzəri dərkini elmimizə o gətirib".

Alimin elmi yaradıcılığının şah əsəri "Azərbaycan dilinin fonemlər sistemi" monoqrafiyası hesab edilir. O, ilk dəfə Azərbaycan dilinin fonetik sistemini eksperimental təhlil əsasında ümumiləşdirərək nəzəri səviyyədə təqdim edib.

Görkəmli elm xadiminin Azərbaycan dilçiliyinin inkişafına verdiyi töhfələr və səmərəli pedaqoji fəaliyyəti yüksək qiymətləndirilib. O, 1986-cı ildə "Azərbaycan dilinin fonetikası" əsərinə görə Azərbaycan SSR-in Dövlət mükafatına layiq görülüb. 2000-ci ildə "Şöhrət" ordeni ilə təltif edilən alim bir il sonra AMEA-nın müxbir üzvü, 2007-ci ildə isə həqiqi üzvü seçilib. 1990-cı ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülən A.Axundov həmin il AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru, 2001-ci ildə isə AMEA-nın Humanitar və İctimai Elmlər Bölməsinin akademik-katibi təyin edilib. 2011-ci ildən ömrünün sonunadək AMEA Rəyasət Heyətinin müşaviri vəzifəsində çalışıb.

Akademik Ağamusa Axundov 5 sentyabr 2015-ci ildə vəfat edib, Bakıda, II Fəxri xiyabanda dəfn olunub. 2017-ci ildə alimin 85 illiyi münasibətilə "Ağamusa Axundov xatirələrdə" adlı kitab çapdan çıxıb.

**Savalan FƏRƏCOV**

# Lətif Kərimov dühası – xalçaçı rəssam, sənətşünas alim

"Bəzi jurnalistlər sözün qədrini bilmirlər. Yerli-yersiz hara gəldi səpələyirlər. Xahiş edirəm mənim haqqımda dəbdəbəli sözlər, cümlələr işlətməyəsiniz" – deyirdi o. "Azərbaycan dekorativ və tətbiqi sənəti sahəsində ən çox nə ilə fəxr edirsiniz" sualına isə – "Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Muzeyi ilə" deyə cavab verirdi.

Bu yazıda Azərbaycan xalça sənətinin mahir bilicisi, ömrünü həsr etdiyi bu qədim sənətimizin "pasport"unu yaratmış, dünyada ilk dəfə Azərbaycanda Xalça Muzeyinin (1967) yaradılmasında fədakarlıq göstərmiş, ölkəmizdə UNESCO-nun xətti ilə ilk beynəlxalq xalça simpoziumunun (1983) təşkilində bilavasitə iştirak etmiş dünya şöhrətli xalçaçı rəssam, sənətşünas Lətif Hüseyn oğlu Kərimovdan (17.11.1906 – 9.9.1991) söhbət açmaq istərdim.



Lətif Kərimov Azərbaycanın qədim mədəniyyət mərkəzi Şuşada anadan olmuşdu. Rəssam özü haqqında deyirdi: "Torpaqdan irəli xalça görmüşəm. Anam Telli Hacınəsib qızı xalçaçı idi. Onun toxuduğu "Ləmpə", "Dəryanur", "Saxsıda güllər" çox adlı-sanlı olub. Mən o xalçaların üstündə imekləmişəm, dil açmışam, yerimək öyrənmişəm. Təkcə anam deyildi xalçaçı. Bu sənət bizim Allahverənlər tayfasının çörək ağacı sayılırdı" ("Sovet kəndi" qəzeti. 10.7.1979).

O, 1911-ci ildə ailəsi ilə İranın Məşhəd şəhərinə köçmüş, orada xalçaçı Mirzə Ələkbər Hüseynzadədən xalça sənətinin sirlərinə yiyələnmişdi. 1929-cu ildə Bakıya dönən Lətif Kərimov 1930-cu ildən "Azərxalça" İstehsalat Birliyinin bədii-texniki rəhbəri olmuş, AMEA-nın Memarlıq və İncəsənət İnstitutunda şöbə müdiri işləmiş, 1960-cı ildən indiki Mədəniyyət və İncəsənət Universitetində pedaqoji fəaliyyət göstərmişdir. Onun eskizləri əsasında və rəhbərliyi ilə "Əfşan" (1931, 1957), "Qonaqkənd" (1939), "Ləçəkturunc" (1952, 1982), "Şuşa" (1953), "Göygöl" (1958), "Qarabağ" (1960), "İslimi" (1964), "Butalı" (1965), "Bahar" (1967, 1977), "Ağaclı" (1974) "Şəbi-hicran" (1975), "Heyvanlar aləmində" (1976), "Zərxara" (1977), "Xətai" (1981), "Əsrlərin nəğməsi" (1985), "Əcəmi" (1985), "Mehrabi Əcəmi" (1987) ornamental xalçaları, "Firdovsi" (1934), Nizami "Xəmsə"sinin motivləri əsasında toxunmuş 5 məşhur xalça (1940-41), "S.Vurğun" (1956), "Avtoportret" (1956), "N.Nərimanov" (1959), "M.P.Vaqif" (1967), "M.Füzuli" (1972), "İ.Nəsimi" (1974), "S.Urməvi" (1975), "M.Əcəmi" (1976) və başqa süjetli xalçalar toxunmuşdur. Sənətkar həmçinin Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyi və Moskvada Ümumittifaq Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin Azərbaycan pavilyonunun portalları, tağları və interyerlərini bəzəyən müxtəlif memarlıq ornamentlərinin müəllifi olmuşdur.

L.Kərimov incəsənət tariximizdə çox nadir şəxsiyyətlərdəndir ki, yaradıcılığında praktika ilə nəzəriyyə paralel olaraq inkişaf etdirilib. Görkəmli xalçaçı rəssam və xalçaşünas alim dekorativ-tətbiqi sənətimizin ən qədim növlərindən biri olan xalça sənətinin tarixini mükəmməl səviyyədə bilirdi. O, Şərq mədəniyyətinin, İslam sənətinin ən incə mətləblərindən xəbərdar idi, Şərq ornament sənətinin simvolikasını, fəlsəfəsini elmi əsaslarla tədqiq edib, araşdırıb, fundamental elmi əhəmiyyətə malik monoqrafiyalar nəşr etdirmişdi. Onun üçcildlik "Azərbaycan xalçası" adlı kitabları, xüsusən də birinci cildi nəşr olunandan qısa müddət sonra bütün dünyaya yayılmış və sənət biliciləri arasında yüksək rəğbət qazanmışdı.







Avropa, Amerika, Şərq ölkələrindən məşhur xalçaşünas alimlər və ekspertlər ona çoxsaylı məktublar göndərərək kitab haqqında qiymətli fikirlərini bildirmişdilər.

L.Kərimovun xalq sənətimizdən qaynaqlanan dərin bilik və bədii zəkası nəticəsində toxunmuş xalçalar özünün kompozisiya quruluşu, rəng həlli, bədii-estetik əhəmiyyəti və texniki işlənilmə xüsusiyyətlərinə görə XX əsr Azərbaycan incəsənətinin qiymətli xəzinəsi hesab olunur. L.Kərimov həm xalça sənətimizin tarixi ilə məşğul olur, bu istiqamətdə elmi araşdırmalar aparır, həm yeni xalça çeşniləri hazırlayır, xalça sənəti ilə bağlı təşkilati işlərlə də ciddi məşğul olurdu. Onun təşəbbüsü və fədakar əməyi nəticəsində Bakıda Xalça Muzeyi yaradılmış, həmçinin dünya xalçaşünas alimlərinin iştirakı ilə xalça simpoziumu təşkil olunmuşdur. Xalçaçı rəssamın Moskva (1954), London (1986), Bakı (1987) və başqa şəhərlərdə fərdi sərgiləri keçirilmişdi. Rəssamın Moskvada təşkil olunmuş sərgisi ilə bağlı "Kommunist" qəzetində (17.8.1954) SSRİ Rəssamlıq Akademiyasının baş elmi işçisi, sənətşünaslıq elmləri namizədi S.Temerin "Moskvada Lətif Kərimovun əsərlərinin sərgisi" adlı məqaləsi dərc olunmuşdu. Məqalədə oxuyuruq: "Sərgiyə tamaşa edənlər arasında Moskvaya qonaq gəlmiş Çin, Hindistan, Koreya, Polşa, İslandiya və başqa ölkələrin nümayəndələri də olmuşlar. Çinli İon-Tek "Mən bu sərgiyə üç dəfə tamaşa etmişəm və hər dəfə Kərimovun milli ənənələrdən bacarıqla istifadə etməsindən çox şey öyrənmişəm". İslandiyalı Tora və Kristin Anderson yazırlar: "Hazırda Moskvada olan biz – islandıyalı qonaqlar bu sərgiyə heyran qaldığımızı bildirmək istəyirik. Sərgi Moskva səfərimizi daha da maraqlı etdi".

L.Kərimov 1950-ci ildə xalça sənətimizlə bağlı apardığı fundamental elmi tədqiqat və araşdırmalarına görə sənətşünaslıq namizədi elmi dərəcəsi almışdı. Əhatəli elmi və bədii yaradıcılıq fəaliyyəti yüksək qiymətləndirilən sənətkar SSRİ Dövlət mükafatı (1950), respublikanın Əməkdar incəsənət xadimi (1955), Xalq rəssamı (1960), "Xalqlar Dostluğu" ordeni (1986) kimi yüksək mükafat və təltiflərə layiq görülmüşdü. Müstəqillik illərində Prezident İlham Əliyevin sərəncamı (27.10.2006) ilə xalçaçı rəssam və sənətşünas alimin 100 illik yubileyi qeyd olunmuşdu.

L.Kərimov "Kommunist" qəzetində (4.9.1983) dərc olunmuş məqaləsində yazırdı: "Uzun illərdən bəri görmək arzusunda olduğum məşhur "Şeyx Səfi" xalçasının qarşısında dayanıb gözümü ondan çəkə bilmirdim. XVI əsrdə Təbrizdə toxunmuş bu nadir xalının hər bir xırda detalını, ilməsini gözdən keçirdikcə, onu yaradan virtuoz rəssamın ustalığı, bu bədii əsərin toxucularının məharəti qarşısında öz heyrətimi və sevincimi gizlədə bilmirdim. Təbriz rəssamlarının bu ölməz işini davam etdirmək üçün həmin rəssamların xatirələrinə yeni bir Şeyx Səfi xalçası yaratmağı qərara aldım". Bu sətirləri nəzərdən keçirərkən, rəssamın xalqına, millətinə necə bağlı sənət xadimi olduğunu bir daha duymaq olur.

Lətif Kərimovun həyat və yaradıcılığı haqqında tanınmış sənətşünaslar, rəssamlar, eyni zamanda dünyanın sənət adamları yüksək fikirlər söyləyiblər, haqqında yüzlərlə məqalə dərc olunub, bədii və elmi yaradıcılıq fəaliyyətinə dair kitab və monoqrafiyalar nəşr olunub.

"Xalçaçılıq elmində o, nadir istedaddır. Rəssam, xalça ustası keçmişdə də olmuş, indi də az deyil, lakin bu sənətin tarixini, elmi-nəzəri rəssamlıq və texniki ifaçılıq cəhətlərini özündə birləşdirən, indiyə qədər bağlı qalan "düyünlərin" sirlərini açan alim, sənətkar isə yəqin ki, olmamış, yoxdur və olmayacaq" – AMEA-nın müxbir üzvü, sənətşünas alim Kərim Kərimov fikirlərini belə qeyd edirdi.

SSRİ EA-nın müxbir üzvü, sənətşünaslıq doktoru B.V.Veymar yazırdı: "...Ölkəmizdə hələ də sənətin müxtəlif sahələrində Lətif Kərimov kimi hərtərəfli istedada malik bir sənətkar yetişməyib... L.Kərimov zəngin xalq yaradıcılığından bəhrələnən novator rəssamdır".

Tanınmış İngiltərə sənətşünası Levi Kepati isə fikirlərini belə qeyd edib: "Hər bir xalçanız özözlüyündə bir incəsənət əsəri, onların ornamentləri isə nadir və zəngindir. Doğurdan da, bu xalçalar dahiyanə sənət əsəridir".

Almaniyanın Köln şəhərindən xalçaçı alim U.Şurman ona yazırdı: "Bu qiymətli kitabı ("Azərbaycan xalçası", I cild. 1961) Moskvada və Leninqradda tapa bilmədim. Bunun üçün Vaşinqtona getməli oldum".

Xalq rəssamları Mikayıl Abdullayev və Böyükağa Mirzəzadə sənətkarın yaddaqalan portretlərini yaratmışlar. M.Abdullayev L.Kərimov haqqında yazır: "Bir şəxsin özünü, sənətini sevmədən portretini işləmək, məncə, mümkün deyil. Lətif Kərimov mənim üçün kimdir? Respublikamızın ən görkəmli dekorativ sənət ustası. Yeganə xalçaçı Xalq rəssamımız. Qızıl, gümüş, fil sümüyü üzərində ən zərif işlər işləyən mahir zərgər. Sənəti, respublikamızın, xalqımızın adını uzaq-uzaq ölkələrdə tanıdan ellim".

Sənətşünas alim Kübra Əliyeva müəllimi L.Kərimovun anasının və bacısının yüz ildən artıq yaşadıqlarını qeyd edərək yazır: "O, inanırdı ki, azı 100 il yaşayacaq. Bəlkə də xalqımızın başına gələn bu bəlalar olmasaydı, o, yaşayardı. Ölümünə bir ay qalana qədər yazan, yaradan bu sənətkarın ölümünə səbəb həmin 20 Yanvar gecəsi oldu. O, gecə İnşaatçılar prospektindəki eyvanından Bakıya yağan gülləbarana, insan qırğınına baxan sənətkar mənən məhv oldu".

Bu il xalçaçı rəssam və alim Lətif Kərimovun anadan olmasının 115-ci, vəfatının 30-cu ildönümüdür. Onun üççildlik "Azərbaycan xalçası" adlı elmi fundamental əhəmiyyətə malik kitablarının doğma ana dilimizdə və nəfis tərtibatda nəşr olunmasını arzu edərdik. Bu, incəsənət dünyamıza ən gözəl töhfə olardı. Mənalı ömrünü Azərbaycan incəsənətinə, xalçaçılıq sənətimizə həsr etmiş, sənət xəzinəmizi yeni-yeni incilərlə zənginləşdirmiş L.Kərimov özünün bədii və elmi yaradıcılıq fəaliyyəti ilə incəsənət tariximizdə əbədi qalacaq.

**Əsəd QULİYEV**
**sənətşünas, AMEA-nın dissertantı**

## Xatirə təqvimi — 8–10 sentyabr

### Azərbaycan

**8 sentyabr 1903** – Əməkdar artist Dadaş Kamil oğlu Şaraplı (Məmmədov; 1903-1959) Bakıda doğulub. Akademik Dram Teatrının aktyoru olub.

**8 sentyabr 1906** – Xalq artisti Yelena Vladimirovna Taryeva (1906-1962) Odessada doğulub. Azərbaycan Dövlət Rus Dram Teatrının aktrisası (1938-ci ildən) olub.

**8 sentyabr 1949** – Əməkdar incəsənət xadim Hüseynağa Ağahüseyn oğlu Atakişiyev (1949 – 9.4.2006) Bakıda anadan olub. Şəki Dövlət, Akademik Milli Dram teatrlarında baş rejissor işləyib. 1989-cu ildə Gənclər Teatrını (2009-cu ildə Gənc Tamaşaçılar Teatrına birləşdirilib) yaradıb. "Üzeyir ömrü" (1981) filmində çəkilib.

**8 sentyabr 1982** – Xalq artisti, teatr rejissoru Ələsgər Məmmədtağı oğlu Şərifov (25.12.1909 – 1982) vəfat edib. Akademik Milli Dram Teatrında çalışıb, "Səbuhi" filmində M.Ş.Vazeh rolunda çəkilib.

**8 sentyabr 2015** – Xalq artisti, tanınmış kamança ifaçısı Habil Mustafa oğlu Əliyev (28.5.1927 – 2015) vəfat edib. Azərbaycan Dövlət Filarmoniyasının solisti olub. Filmlərdə musiqiləri ifa edib.

**9 sentyabr 1937** – Əməkdar mədəniyyət işçisi Aybəniz Səməd qızı Vəkilova (1937 – 13.6.2009) anadan olub. Səməd Vurğunun Ev-Muzeyinin baş mühafizi və direktoru (2006-2009) işləyib.

**9 sentyabr 1939** – Xalq artisti İrina Aleksandrovna Perlova (1939 – 14.9.2010) anadan olub. Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında (rus bölməsi) quruluşçu rejissor işləyib.

**9 sentyabr 1991** – Dünya şöhrətli xalçaçı alim, dekorativ sənət ustası, Xalq rəssamı Lətif Hüseyn oğlu Kərimov (17.11.1906 – 1991) vəfat edib. "Azərbaycan xalçalarında ornament", "Azərbaycan xalçası" çoxcildliyi və s. kitabların müəllifidir. L.Kərimovun təşəbbüsü ilə Bakıda Xalça Muzeyi təşkil olunub.

**9 sentyabr 2014** – Xalq artisti İbrahim Əhməd oğlu Məmmədov (Bənəniyarlı; 22.12.1934 – 2014) vəfat edib. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru olub.

**10 sentyabr 1901** – Əməkdar artist, vokalçı Qulam Məşədi Kazım oğlu İsgəndərov (1901-1975) Şamaxıda doğulub. Opera və Balet Teatrında çalışıb.

**10 sentyabr 1917** – Xalq artisti Firuzə Məmmədqulu qızı Əlixanova (1917 – 24.11.1994) Naxçıvan MR Ordubad rayonunda doğulub. Naxçıvan Dövlət Musiqili Dram Teatrında çalışıb, teatrın ilk aktrisalarından olub.

**10 sentyabr 1931** – Xalq artisti, tanınmış vokal ifaçısı, aktyor Mobil (Müğbil) Salman oğlu Əhmədov (1931 – 3.6.2006) Gəncədə doğulub. 40 ilə yaxın Musiqili Komediya Teatrında çalışıb, tamaşalarda əsas rolları ifa edib.

**10 sentyabr 2015** – Əməkdar rəssam Altay Ağasəid oğlu Səidov (1926 – 10.9.2015) vəfat edib. Gənc Tamaşaçılar Teatrında baş rəssam işləyib.

### Dünya

**8 sentyabr 1830** – Fransız şairi, ədəbiyyat üzrə Nobel mükafatı (1904) laureatı Frederik Mistral (Frederic Mistral; 1830-1914) anadan olub. Kitabları: "Mireyo", "Qızıl adalar", "Zeytun yığımı".

**8 sentyabr 1841** – Görkəmli çex bəstəkarı Antonin Leopold Dvorjak (1841-1904) anadan olub. 10 opera ("Su pərisi", "Armida" və s.), 9 simfoniya, 5 simfonik poema və başqa əsərlərin müəllifidir.

**8 sentyabr 1923** – Dağıstanın Xalq şairi Rəsul Həmzətov (1923 - 3.11.2003) anadan olub. Milliyətcə avardır. Kitabları: "Dostları qoruyun", "Mənim Dağıstanım" və s. Şeirlərinə populyar mahnılar bəstələnib. Sosialist Əməyi Qəhrəmanı adına, Lenin mükafatına layiq görülüb.

**9 sentyabr 1583** – İtalyan bəstəkarı, fuqa musiqi alətinin yaradıcılarından biri Cirolamo Freskobaldi (Girolamo Frescobaldi; 1583-1643) anadan olub.

**9 sentyabr 1769** – Ukrayna ədəbiyyatının banilərindən biri, şair və yazıçı İvan Kotlyarovski (1769-1838) anadan olub. Əsərləri: "Üzü köçürülmüş Eneida", "Natalka Poltavka" və s.

**9 sentyabr 1828** – Böyük rus yazıçısı və mütəfəkkiri Lev Nikolayeviç Tolstoy (1828 – 20.11.1910) Tula quberniyasının Yasnaya Polyana kəndində doğulub. Əsərləri: "Ailə xoşbəxtliyi", "Hərb və sülh", "Anna Karenina", "Dirilmə" (romanlar), "Kreyser sonatası", "Kazaklar", "Hacı Murad" (povestlər), "Canlı meyit" (pyes) və s.

**9 sentyabr 1908** – İtalyan yazıçısı Çezare Paveze (Cesare Pavese; 1908-1950) anadan olub. "Yoldaş", "Xoruz banlamayınca", "Gözəl yay", "Ay və tonqallar" və s. romanların müəllifidir.

**10 sentyabr 1839** – Amerika filosofu, praqmatizm və semiotikanın banilərindən biri Çarlz Sanders Pirs (Charles Sanders Peirce; 1839-1914) anadan olub.

**10 sentyabr 1872** – Rus yazıçısı, etnoqraf, səyyah, Uzaq Şərqin tədqiqatçısı Vladimir Arsenyev (1872-1930) anadan olub. Əsərləri: "Dersu Uzala", "Tayqanın ortasında" və s.

**10 sentyabr 1912** – Məşhur Danimarka karikaturaçısı Herluf Bidstrup (Herluf Bidstrup; 1912-1988) anadan olub.

**10 sentyabr 1914** – Amerika kinorejissoru Robert Uayz (Robert Wise; 1914-2005) anadan olub. İki dəfə "Oskar" laureatıdır: "Vestsayd əhvalatı", "Musiqi səsləri".

**10 sentyabr 1934** – Türk mənşəli (Krım tatarı) Ukrayna bəstəkarı Alemdar Karamanov (1934-2007) anadan olub. Əsərləri: "Ay dənizi" simfoniyası, "Məhəbbətdən güclü" baleti və s.

**Hazırladı: Vüqar ORXAN**

# Türk millətinin ruhunu canlandıran epos

## Dədə Qorqud türk mədəniyyəti, tarixi və ədəbiyyatı konfransı keçirilib

AMEA-nın Folklor İnstitutu, Türkiyənin Ege Universitetinin Türk Dünyası Araşdırmaları İnstitutu, İqtisadi İnkişaf və Sosial Araşdırmalar İnstitutunun birgə təşkilatçılığı ilə IV Beynəlxalq Dədə Qorqud türk mədəniyyəti, tarixi və ədəbiyyatı konfransı keçirilib.

Onlayn formatda təşkil olunan konfransı AMEA-nın Folklor İnstitutunun Dədə Qorqud şöbəsinin müdiri və eyniadlı dərginin baş redaktoru, filologiya elmləri doktoru Ramazan Qafarlı açaraq tədbirin ortaq tariximizin zəfərlərlə dolu olan bir çağında keçirildiyini söyləyib. Bildirib ki, dünya hər zaman ulu türkün döyüşkənliyi ilə yanaşı, maddi-mənəvi abidələr yaratmaqda da heç bir xalqdan geri qalmadığının, bəzən daha üstün mövqedə dayandığının şahidi olub.

R.Qafarlı Türkiyənin Ege Universitetinin Türk Dünyası Araşdırmaları İnstitutunun bölmə rəhbəri professor Mətin Əkicinin konfransın əsas tərəfdaşlarından biri olduğunu qeyd edib, alimin "Koroğlu" və "Dədə Qorqud" eposlarının yorulmaz araşdırıcısı kimi çoxçeşidli elmi-pedaqoji fəaliyyətini, eləcə də "Koroğlu" eposunun dünya xalqları arasında mövcud olan variantlarını müqayisəli şəkildə araşdırmasını və onun səyi nəticəsində dastanın İranda tapılan yeni əlyazmasının elmi dövriyyəyə təqdim edilməsini yüksək qiymətləndirib.

Professor Mətin Əkici çıxışında Türkiyə-Azərbaycan qardaşlığının qeyri-maddi mədəni irsə verdiyi dəyərin əhəmiyyətindən bəhs edib. "Kitabi-Dədə Qorqud"un və Qorqud ata hekayələrinin bu gün əlimizə üç nüsxə şəklində gəlib çatdığını vurğulayan alim dastanda istifadə edilən dilin türk millətinin ruhunu canlandırdığını diqqətə çatdırıb.

Folklor İnstitutunun Mifologiya şöbəsinin müdiri, professor Seyfəddin Rzasoy, filologiya elmləri doktoru Nizami Muradoğlu çıxış edərək "Dədə Qorqud" eposunun oğuz xalqlarının milli kimliyinin, keçmişinin, bugününün və gələcəyinin kitabı olduğunu və hər gələn nəslin bu kitabda yeniliklər tapacağını vurğulayıblar. Bildirilib ki, "Kitabi-Dədə Qorqud" həmçinin türk xalqlarının ədəbiyyatını, hərb və dövlətçilik tarixini öyrənmək baxımından əvəzedilməz mənbədir.

Türkiyənin İqtisadi İnkişaf və Sosial Araşdırmalar İnstitutunun Azərbaycan təmsilçisi Əlvan Cəfərli iştirakçılara və konfransın fəaliyyətinə uğurlar arzulayıb.

Üç bölmədə işini davam etdirən konfransda 30-a yaxın məruzə dinlənilib.

# "Vətən müharibəsi və ədəbiyyatda milli özünüdərk problemi"

Vətən müharibəsinin başlamasının ildönümü münasibətilə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, Azərbaycanda Atatürk Mərkəzinin elmi əməkdaşı, fəlsəfə elmləri doktoru, professor Rahid Uluselin "Vətən müharibəsi və ədəbiyyatda milli özünüdərk problemi" kitabı çap olunub.

"Elm və təhsil" nəşriyyatında işıq üzü görən kitab "Qalib Azərbaycanın qalib ədəbiyyatı" paradiqmasının konseptual əsaslandırılmasından ibarətdir. Müəllif Vətən müharibəsinin ədəbiyyatda milli özünüdərketmə prosesini necə təsirləndirdiyini və onda hansı keyfiyyət dəyişikliyi yaratdığını araşdırır, Azərbaycanda dövlət və mədəniyyət quruculuğunun qarşılıqlı stimullaşma təkamülünü izləyir, öz siyasi tarixindən ayrılmaz olan bir ədəbiyyatın estetik mahiyyətini açır. O, həmçinin müstəqil dövlətimizin təşəkkülünə gətirib çıxaran siyasi, mədəni, əxlaqi və ədəbi dünyagörüşünün formalaşmasını izləyir, Birinci və İkinci Qarabağ müharibələri dövründə yaradılan ədəbiyyatın – "ədəbi-bədii salnamənin birinci və ikinci qatı" – örnəklərini araşdırır.

Müharibənin başladığı vaxtdan indiyədək bilavasitə bədii ədəbiyyatın və ümumən ədəbi-humanitar mədəniyyətimizin son bir ildə əldə etdiklərini ümumiləşdirən müəllif bu nəticəyə gəlir ki, Azərbaycan ədəbiyyatı, incəsənəti və mədəniyyəti qarşısında böyük perspektivlər açılır. Alim qeyd edir ki, ədəbiyyatın Şuşa zirvəsini fəth etmək – bu gün bizim yaradıcı düşüncəmizin görküdür.

Kitabın elmi redaktoru və ön sözün müəllifi Milli Məclisin deputatı, Azərbaycanda Atatürk Mərkəzinin müdiri akademik Nizami Cəfərovdur.

# TÜRKSOY Gənclər xorunun qastrol səfərləri başlayıb

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un nəzdində türk xalqlarının zəngin musiqi sənətini dünyaya tanıdan yaradıcı kollektivlər də fəaliyyət göstərir. Onlardan biri TÜRKSOY Gənclər xorudur.



Pandemiya səbəbindən çıxışlarına bir müddət ara verən kollektiv Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanın müstəqilliyinin 30-cu ildönümü münasibətilə Türkiyənin şəhərlərinə qastrol səfərinə çıxıb.

Xorun ilk konsert proqramı sentyabrın 2-də Hatay şəhərində təşkil edilib. Onlarla fərqli xalqın mədəniyyətinə ev sahibliyi edən, sülh, qardaşlıq və tolerantlığın paytaxtı hesab edilən Hatayda keçirilən konsert böyük maraqla qarşılanıb.

Hatay Böyükşəhər Bələdiyyəsinin başqanı Lütfü Savaşın da qatıldığı tədbir Türkiyədə qeyd olunan "Yunus Əmrə və Türk Dili İli" çərçivəsində Ahmet Adnan Saygunun "Yunus Əmrə" oratoriyasından bir bölümlə başlayıb. Konsert proqramında türkdilli ölkələrin musiqiləri yer alıb.

2015-ci ildə türkdilli ölkələrin konservatoriyalarında oxuyan gənc vokalçılardan təşkil olunan və həmin il Almaniyada keçirilən Dünya Xor Olimpiadasında mükafata layiq görülən TÜRKSOY Gənclər xorunda bu il Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkiyədən 27 gənc ifaçı yer alıb. Xorun dirijoru Qazaxıstan Filarmoniyası Xorunun rəhbəri Gülmirə Kuttibadamovadır.

Ötən illərdə konsertləri TRT kanalında yayımlanan, müxtəlif albomlarla izləyicilərin qarşısına çıxan səs sənətçiləri bu il İzmirdə keçirilən Dünya Birləşmiş Şəhərlər və Yerli İdarələr Təşkilatının Mədəniyyət zirvəsinin bağlanışında da çıxış edəcəklər. Sentyabrın 11-də keçiriləcək konsert proqramına Azərbaycandan vokalçı Çinarə Şirinova da qatılacaq.

**Mehparə SULTANOVA**
**Ankara**

# Tar, kamança və qaval Dünya Musiqi Alətləri Muzeyində



*əvvəli səh. 1-də*

Sonra muzeyin direktoru Masayuki Tsurutanın iştirakı ilə Azərbaycan milli musiqi alətlərinin təqdim olunması mərasimi keçirilib. Bildirilib ki, Azərbaycan ilə Yaponiya arasında müxtəlif sahələrdə, həmçinin mədəniyyət sahəsində sıx əməkdaşlıq mövcuddur. Azərbaycanlı musiqiçilərin Yaponiyada, yapon musiqiçilərin isə ölkəmizdə konsertləri təşkil edilib. 2018-ci ildə TÜRKSOY-un 25 illiyi münasibətilə Yaponiyada təşkil edilən turne zamanı Hamamatsu muzeyində olan azərbaycanlı musiqiçi Babək Quliyev burada Azərbaycan milli musiqi alətlərinin olmamasından təəssüflənib və bunu Yaponiyadakı diaspor təşkilatımızın fəallarına bildirib. Məsələ 2020-ci ildə Azərbaycan Milli Paralimpiya Komitəsinin "Host town" proqramının təşkili ilə əlaqədar Tokioya gəlmiş nümayəndəsi Rüfət Hacılı ilə də müzakirə olunub. Təşəbbüs Heydər Əliyev Fonduna çatdırıldıqdan sonra bəyənilib və milli musiqi alətlərimizin Hamamatsu Dünya Musiqi Alətləri Muzeyinə təqdim olunmasına dəstək verilməsi qərara alınıb.

Qeyd edilib ki, muzeyə təqdim edilən tar, kamança və qaval vasitəsilə ifa edilən muğam sənəti, eləcə də tar və kamança ifaçılığı sənətləri ayrı-ayrılıqda UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib.

Tədbirdə çıxış edən R.Cəfərov Azərbaycanın Yaponiyadakı səfiri Gürsel İsmayılzadənin salamlarını çatdırıb, iki ölkə arasında dost münasibətlər barədə söz açıb, gələn il diplomatik əlaqələrin yaradılmasının 30 illiyinin qeyd ediləcəyini bildirib. O, Azərbaycan paralimpiyaçılarının uğurlarından bəhs edərək, idmançılarımızın 14 qızıl medal qazandığını vurğulayıb. G.İsmayılzadə Yaponiyanın Şika şəhərində "Host-town" proqramına qatılan paralimpiyaçılarımızın yarışlara yaxşı hazırlaşması üçün yaradılmış şəraiti də yüksək qiymətləndirib.

Diplomat Azərbaycan musiqi alətlərinin muzeyə Heydər Əliyev Fondu tərəfindən hədiyyə olunduğunu və bu missiyanın Azərbaycan paralimpiya yığmasının nümayəndələrinə həvalə edildiyini vurğulayıb.

Muzeyə təqdim edilən hədiyyələrə görə Heydər Əliyev Fonduna və Milli Paralimpiya Komitəsinə minnətdarlığını ifadə edən direktor Masayuki Tsuruta bu alətlər barədə həm yerli sakinlərə, həm də dünyanın hər yerindən Yaponiyaya gələn ziyarətçilərə ətraflı məlumat veriləcəyini bildirib.

# Haaqadakı "Səfirliklər Festivalı"nda Azərbaycanın stendi maraq doğurub

Niderlandın Haaqa şəhərində keçirilən ənənəvi "Səfirliklər Festivalı"nda ölkəmiz də təmsil olunub. Stendlər vasitəsilə səfirliklər ölkələrin mədəniyyətlərini, milli mətbəxlərini və rəqslərini nümayiş etdiriblər.



Artıq 9 ildir keçirilən festivalda Azərbaycan səfirliyinin stendi iştirakçı və ziyarətçilərin diqqət mərkəzində olub. Stendimizdə milli geyimlərimiz, mətbəximizin təamları və Azərbaycan şərabları nümayiş olunub. Ziyarətçilər Azərbaycan mətbəxinin ləziz təamlarını həvəslə dadıblar.

Haaqa şəhərinin meri Jan van Zanen də Azərbaycan stendinə yaxınlaşaraq, ölkəmizin Niderland Krallığındakı səfiri Fikrət Axundovla görüşüb. Mer səfirliyimizin ənənəyə çevrilmiş festivalda həmişə yüksək səviyyədə təmsil olunduğunu vurğulayıb.

Festival müddətində ziyarətçilərə ölkəmiz, mədəniyyətimiz, eləcə də Azərbaycanın turizm imkanları haqqında ətraflı məlumat verilib. Köln şəhərində fəaliyyət göstərən "Nart Dans Köln" rəqs qrupu milli rəqslərimizi təqdim edib. Azərbaycan rəqsi sürəkli alqışlarla qarşılanıb.

# "Möhtəşəm" "Professional"

## Jan-Pol Belmondo dünyasını dəyişdi



Dünya şöhrətli fransız aktyoru Jan-Pol Belmondo sentyabrın 6-da, ömrünün 89-cu ilində vəfat edib.

1933-cu il aprelin 9-da heykəltəraş Pol Belmondonun ailəsində dünyaya gələn gələcəyin məşhur aktyoru idmanı çox sevib, futbol, velosiped, xüsusilə də boksla məşğul olub, bir ara peşəkar idmançı olmaq istəyib. Parisdə Dram Sənəti Ali Milli Konservatoriyasını bitirdikdən sonra teatrda çalışmağa başlayıb.

1956-cı ildə ilk filminə çəkilib. Üç il sonra fransız kinosunda "yeni dalğa"nın nümayəndələrindən olan Jan-Lük Qodarın "Son nəfəsdə" filmində baş rolu oynaması 26 yaşlı aktyora şöhrət gətirir. Bundan sonra bir çox macəra və komediya filmlərinə dəvət alan aktyorun ümumilkdə kinoda 80-dən çox rolu var. Paralel olaraq 90-cı illərin ortalarınadək teatr tamaşalarında da oynayıb. Dünya miqyasında isə təbii ki, kinodakı rolları ilə tanınıb: "Möhtəşəm", "Professional", "Riodan olan adam", "Dəlisov Pyero" və s.

Aktyor Fransanın milli kino mükafatı olan "Sezar"a (1989), Kann Film Festivalının fəxri "Qızıl palma budağı" (2011) və Venesiya Film Festivalının fəxri "Qızıl şir" mükafatlarına (2016) layiq görülüb. 2009-cu ildən sonra məşhur aktyor ekranda baş rollarda görünməyib. Amma 2018-ci ildə "Corse-Matina" qəzetinə müsahibəsində "Elə xoşbəxt həyat yaşadım ki, sonumdan qorxmuram" deyən aktyor hələ də filmə çəkilmək arzusunu gizlətməmişdi...

**CAVİD**

# "Puşkin kartı" ilə mədəniyyətlə təmas

## 14-22 yaşında hər kəs muzey və teatrları pulsuz ziyarət edə biləcək

Rusiya Federasiyası Hökuməti sentyabrın 1-dən başlayaraq 14-22 yaşlı gənclər üçün nəzərdə tutulan "Puşkin kartı" proqramına başlayıb. Gənclərə teatr, muzey, konsert salonları və digər mədəniyyət müəssisələrini pulsuz ziyarət etmək imkanı verən bu kartın tətbiqi qonşu ölkənin mədəni mühitində böyük məmnunluqla qarşılanıb.




Proqram 2021-ci ilin sonunadək kart sahiblərinə mədəniyyət ocaqlarına bilet almaq üçün müəyyən məbləğdə limit ayırır. Bir neçə gün ərzində minlərlə təşkilat, həm də təkcə dövlət qurumları deyil, özəl qurumlar da layihəyə qoşulmaq istəyini bildirib.

Yaşayış yerindən asılı olmayaraq Rusiyanın istənilən regionunda istifadə ediləcək kart sisteminin təşəbbüskarı Rusiya Prezidenti Vladimir Putindir. Yeni sistem gənclərin dövlət hesabına mədəniyyət və incəsənət hadisələrindən kənarda qalmamasına şərait yaradır. Baş nazir Mixail Mişustin proqramın ilk mərhələsi üçün 3,9 milyard rubl vəsait ayrılması üçün sərəncam verib. Hesablamalara görə, hazırda Rusiyada yaşayan 14-22 yaşlı 13 milyon oğlan və qız "Puşkin kartı"nın sahibi olacaq.

Bəs niyə məhz "Puşkin kartı"? A.S.Puşkin adına Dövlət Təsviri Sənət Muzeyində baş tutmuş yeni proqramın təqdimat mərasimində vitse-premyer Tatyana Qolikova qeyd edib ki, ad seçimi təsadüfi deyil. Aleksandr Puşkin rus mədəniyyətinin əsas rəmzlərindən biridir, onu bütün dünya tanıyır və sevir. Rus mədəniyyətinin elçisi sayılan dahinin adını daşıyan kart da gənclər arasında mədəniyyətə marağı artırmağa xidmət edəcək.

"Puşkin kartı" bank kartı olsa da, o, yalnız xüsusi komissiyanın repertuarını bəyəndiyi mədəniyyət müəssisələrinin bileti üçün keçərlidir. Bu məbləği başqa məqsədli onlayn ödəniş üçün istifadə etmək, kartdan pul çəkmək də mümkün deyil: hesabda fiziki vəsait yoxdur, o, yalnız bileti alınmış muzey və ya teatrın hesabına birbaşa daxil olur. Kinoteatr və sirk daha çox əyləncə sənayesinə aid edildiyindən onlar bu proqramdan kənarda qalıb. "Puşkin kartı"nın əhatə dairəsinə ölkə üzrə 1353 mədəniyyət müəssisəsindən 7 min tədbir daxil edilib. Kultura.rf portalında və smartfonlar üçün xüsusi əlavədən bileti onlayn şəkildə də almaq olar. İnternetə çıxışı olmayan gənclər isə "Poçta Banka"nın istənilən şöbəsində plastik kart əldə edə bilərlər. İlin sonunadək kartdakı pul vəsaiti 3000 rubl olacaq, növbəti ildə isə 5000 rubladək artırılması nəzərdə tutulur. Kartda yığım sistemi yoxdur, yəni, ilin sonunda xərclənməmiş məbləğ sıfırlanacaq. Üstəlik, kartlar ünvanlıdır; kartla bilet alan gənc həm də şəxsiyyəti təsdiqləyən sənəd təqdim etməlidir.

Vitse-premyer Tatyana Qolikova əmindir ki, belə bir kartın mövcudluğu və gənclərin seçimi mədəniyyət müəssisəsi rəhbərlərini ekspozisiyaları təzələmək, gənc rusiyalıların zövqünə uyğun tamaşalar qurmaq barədə də düşünməyə vadar edəcək.

**GÜLCAHAN**

# Azərbaycanlı rejissorun "Səs"i Qırğızıstana gedir

Rejissor Zamin Məmmədovun "Səs" filmi 14-17 sentyabr tarixində Bişkekdə (Qırğızıstan) keçiriləcək beynəlxalq festivalda nümayiş olunacaq.

Bu barədə "Azərbaycanfilm" Kinostudiyasından məlumat verilib. Bildirilib ki, "Səs" filmi 10-cu Qırğızıstan Beynəlxalq Film Festivalının müsabiqə proqramına daxil edilib.

Mərhum rejissor və aktyor Rövşən Almuradlının (1954-2019) ssenari müəllifi olduğu filmdə əsas rollarda Vidadi Əliyev, Nigar Məmmədova və Rəşad Səfərov çəkilib. Çəkilişlər İsmayıllı rayonunun kəndlərində aparılıb.

Ekran əsəri Qərbi Azərbaycandan (indiki Ermənistan ərazisi) zorla çıxarılmış soydaşlarımızın vətən həsrətindən bəhs edir. Filmin qəhrəmanı olan qoca oğlunun gətirdiyi doğma torpaqlarının arxiv kadrlarına baxaraq özünü sanki doğma yurd yerlərində hiss edir. Qoca hər gün kadrları izləyərək yuxulayır. Yuxusunda isə doğma kəndini görür və sonda da dünyasını vətən həsrəti ilə elə yuxuda ikən dəyişir.

# Daşkənddə milli mədəniyyət mərkəzlərinin bayram tədbiri

Özbəkistanda fəaliyyət göstərən milli mədəniyyət mərkəzləri ölkənin müstəqilliyinin 30 illiyi münasibətilə təntənəli bayram tədbiri keçiriblər. Paytaxt Daşkənddə təşkil olunan tədbirdə Respublika Azərbaycan Milli Mədəniyyət Mərkəzi (RAMMM) də iştirak edib. Mərkəz üçün ayrılmış guşədə ölkəmizin tarixi və mədəniyyəti ilə bağlı kitablar, suvenirlər nümayiş etdirilib, qonaqlara şəkərbura, paxlava və digər şirniyyatlarımız təklif olunub.



RAMMM-in sədri Firdovsi Hüseynov iştirakçıları Özbəkistanın müstəqilliyinin 30 illiyi münasibətilə təbrik edib, ölkələrimiz arasında əlaqələrin inkişafından danışıb.

Bayram tədbirində iştirak edən xalqların nümayəndələri öz musiqi və rəqslərini təqdim edib, Azərbaycan diasporunun aktiv üzvü İlham Abdullayev sazda qədim el havalarını səsləndirib.

# Misir telekanalında Nizamiyə həsr olunmuş veriliş

Misirin "Nil-Mədəniyyət" televiziya kanalında dahi Azərbaycan şairi Nizami Gəncəviyə həsr olunmuş veriliş yayımlanıb.

Verilişdə 2021-ci ilin Azərbaycanda "Nizami Gəncəvi İli" elan edilməsi, Şərqin dahi şair və mütəfəkkirinin həyat və yaradıcılığı, dünyaya gəldiyi Gəncə şəhəri haqqında ətraflı məlumat verilib. Qeyd edilib ki, Nizami Gəncəvi "Leyli və Məcnun" poemasını ərəb məhəbbət dastanından ilham alaraq yaradıb. Misirin İsgəndəriyyə Kitabxanasında şairin büstünün qoyulduğu da diqqətə çatdırılıb. Süjetdə Azərbaycanın 2020-ci ildə Vətən müharibəsində qazandığı Zəfər, ölkəmizin zəngin mədəni irsi haqqında da söhbət açılıb.

Verilişdə həmçinin Nizaminin "Leyli və Məcnun" poeması əsasında kiçik tamaşa hazırlayan və himnimizi ifa edən misirli gənclərə ölkəmizin Misirdəki səfirliyi tərəfindən təşəkkürnamələr təqdim edilib.

Mədəniyyət Nazirliyinin kollektivi Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinin elmi işlər üzrə direktor müavini, Əməkdar mədəniyyət işçisi

**Nairə Sadıxovanın**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə, yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

***

Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin kollektivi Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinin elmi işlər üzrə direktor müavini, Əməkdar mədəniyyət işçisi

**Nairə Sadıxovanın**

vəfatından kədərləndiyini bildirir, mərhumun doğmalarına, yaxınlarına və işlədiyi kollektivə dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

***

Bülbülün Memorial Muzeyinin kollektivi Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinin elmi işlər üzrə direktor müavini, Əməkdar mədəniyyət işçisi

**Nairə Sadıxovanın**

vəfatından kədərləndiyini bildirir, mərhumun doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri**

**MƏDƏNİYYƏT**

**Qəzet 1991-ci ilin yanvarından çıxır**

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 4736
**Sifariş:** 1677

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.